Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi (Qurumu)

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana

"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"

Elektron kitab N 74 (27 - 2018)

Telman Ümman Tircanlı

“Bir gün görüşərik”

Şeirlər kitabı

2018

YYSİB (Q) – Bakı - 2018

http://www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"

Elektron kitab N 74 (27 - 2018)

Bu elektron nəşr Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2018-ci ildə I maliyyə yardımı müsabiqəsinin qalibi olmuş, Şura tərəfindən bir hissəsi maliyyələşdirilən, "Yeni Yazarlar və Sənətçilər" İctimai Birliyinin (Qurumu) - http://www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxananın **"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi"** kreativ-innovativ layihə çərçivəsində nəşrə hazırlanıb və yayımlanır.

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurumlar:Azərbaycan Respublikası Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası: http://cssn.gov.az/

Feysbukda "Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi" kulturoloji-bədii layihəsi çərçivəsində rəsmi səhifə: https://www.facebook.com/kreativlayihe/

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi (Qurumu) - http://www.yysq.kitabxana.net

"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi" bölümündəki e-kitablar: http://kitabxana.net/?oper=e_kitabxana&cat=182

Telman Ümman Tircanlı

“Bir gün görüşərik”

Şeirlər kitabı

Kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb

YYSİB - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

Kreativ-innovativ layihə haqqında

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2018-ci ilin 1-ci qrant müsabiqəsinə "Yeni Yazarlar və Sənətçilər" İctimai Birliyi tərəfindən təqdim olunan kreativ layihə: **"Kreativ innovasiya: yazıçıların elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüslərinin dəstəklənməsi".**

Son illər elektron kitab, e-kitabxana, İnternetüstü e-nəşr və virtual satış kimi yeni kreativ-innovativ təşəbbüslər kreativ biznesin - mədəniyyət sahələrini əhatə edən yaradıcılıq sənayesi dünyanın hər yerində sürətlə inkişaf edərək incəsənətlə, bədii yaradıcılıqla məşğul olan şəxslərin maddi rifahını yüksəltməyə xidmət etsə də, Azərbaycan ədəbiyyatın müxtəlif istiqamətlərində istedadlarını ortaya qoyan yazıçılarımız, şairlərimiz, dramaturqlarımız, tərcüməçilərimiz, naşirlərimiz, kitab yayımçılarımız, tənqidçilərimiz və esseistlərimiz bu yeni gəlirli sahələrdən kənarda qalıblar. Kreativ innovasiya formasında milli yazıçılarımızın, naşirlərimizin elektron kitab və mədəni biznes sahəsindəki təşəbbüsləri dəstəkləyir. Layihə çərçivəsində elektron kitab istehsalını, yayımını, təbliğini, bu sahədə problemlərin araşdıraraq cəmiyyətin müzakirəsinə çıxarması nəzərdə tutulub.

DİQQƏT!

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana. 2018

Telman Ümman

Tircanlı

Bir gün görüşərik

YYSİB - Bakı - 2018

Yeni Poliqrqfist 2014

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana. 2018

Redaktorları: **Teyfur Çələbi**
Könül Telmanqızı
İlyas Naxçıvanlı

Telman Ümman
Tircanlı

“Bir gün görüşərik ”

*“**Qızıl Qələm**” media mükafatı laureatı,*
*“ **İcmal** “ **ictimai – siyasi qəzeti**nin əməkdaşı*

Telman Ümman Tircanlı (Telman Ramazanov)

*“**Alabəzək dünya**“,*
*“ **Sənə sözüm var** “,*
*“**Qızıl xəzinə**“ (həmmüəlliflərdən biri),*
*“ **Ünvanı Bəlli Sevgi** “ ,*
*“**Sözün Zirvəsinə Doğru**“ və*
*“**Bir gün görüşərik**” kitablarının müəllifidir.*

İSBŞ 978-8-28-7-8-2013

Yeni poliqrafist – 2014

Ön söz əvəzi

Həyat, bircə an dayan,
Düşənlər var gözümdən.
Düşsünlər, sürüşsünlər.
Mənlə yol getməsinlər
qoşa, çiyin – çiyinə,
Özlərinə bab ilə
getsinlər, görüşsünlər.

Həyat, bircə an dayan,
düşənlər var dilimdən.
Düşsünlər,əkilsinlər,
yolumdan çəkilsinlər.
Qorxuram xəta çıxar,
istəmədən əlimdən.

Həyat, bircə an dayan,
çıxarım ürəyimdən
əziyyət verənləri,
Haqqı və ədaləti
çaş - əyri görənləri.

Həyat, bircə an dayan,

düşənlər var gözümdən.
Çıxanlar var izindən.
İnsan tapmaq nağıldı,
Yoxsa ki, insanlığın
bünövrəsi dağıldı?
İnsan tapmaq çox müşkül,
kim tapsa min – min əhsən,
bircəciyin yüzündən.

Aysun

Çox dəyərli və səmimi insan,
dostum Aydın Əliyevin nəvəsinə

Bu məmləkət yurdum – elim,
Burdan doğma bir yerim yox.
Çox sevirəm bu torpağı.
Çox sevirəm bu torpaqda
zəhmət ilə ömr eyləyən,
hər minnətdən, təmənnadan
uzaq olan insanları.

Azərbaycan gözəlimin
igidləri, ərəni çox.
Bu torpaqda özləritək
incə güllər yetirən çox, dərəni çox.

Çoxdur mənim dost – tanışım,
Heç bilmirəm ki, onların
hansı birindən danışım.
Bu sırada sadə fəhlə,
müəllimi, alimi var.

Hamısı da bir – birindən
fərqli – başqa, çox maraqlı.
Bax bu fərqli insanların
fərqli – fərqli aləmi var.
Bir dostum var cəm içində,
sadə peşə adamıdır, sürücüdür.
Usanmadan hey çalışır,
zəhmətkeşdir çoxu kimi.
Deyir, ömrüm keçib mənim
bu yollarda, şirin röya – yuxu kimi.

Soruşanda söyləyir ki,
bax bu sükan arxasında
illərdir ki, can qoymuşam,
yenə varam.
Düşünməyin bu peşəmdən
usanmışam, ya doymuşam.

Adı Aydın, sözü aydın,
həm də olsun gözü aydın.
Çox sevir o nəvələrin,
bəlkə də öz canından çox.
Dünya malı – sərvətindən
gözü, könlü daima tox.

Lap çox sevir Aysunu o.
Deyir, mənim ürəyimin
parçasıdır, parasıdır.
Dəcəl qızım, Aysun balam
gözlərimin qarasıdır.

Aysun sanki od parçası,
dil – dil ötür bülbül kimi.
Gözləri çox mənalıdır,
telləri var sünbül kimi.
Hey fırlanır ətrafına
fırfıratək babasının,
Bilinməyir çərçivəsi
nazı – qəmzə, ədasının.

Bir insana nə gərəkdir,
Sirrlə dolu bu dünyada?
Bundan böyük sərvətmi var,
Bundan böyük dövlətmi var?

Qurban olum dədələrin dillərinə,
zərdən baha kəlamına.
Onlar layiq yerin – göyün
ən möhtəşəm salamına.

Onlar deyib dönə - dönə,
Var – dövlətdə nər – dəvədir.
Oğul – uşaq arasında
ən şirini, ən şəkəri
varsa, o da tək nəvədir.

Batan günəşə bənzəyirik

Batan günəşə bənzəyirik biz
T. Çələbi

Kaş elə bir batan günəş olaydıq,
Bataydıq gecənin dərinliyində.
Bataydıq sübh tezdən
doğulmaq üçün.

Gəlmişik dünyaya
Tanrı hökmüylə,
Gəlmişik yaşayaq ömür payının
isti – soyuğunu, şaxta – qarını,
Gül – çiçək ətirli
yaz – baharını.

Gəlmişik dünyaya biz o səbəbdən
yaşayaq sayğılar,
savab içində.
Gəlmədik,
gəlmədik fani dünyaya
nə itib – batmağa,
nə dərd etməyə,
nə də ki gəlmədik
boğulaq hər gün üfunət içində,
çirkab içində.

Unut

Çıxart ürəyindən at o insanı.
At onu, necə ki, kağız parçasın
əlində sıxaraq, atdığın kimi.

At onu, başına bəla gərəkmi?
Bu qədər çəkdiyin bəs etməyibmi?
At onu, götürüb qara bir daşı,
çox dərin bir gölə atdığın kimi.

At onu, içinin suyunu içib,
kənara atdığın boş şüşə kimi.

Unut, o insanın xəyalın unut.
Bir zaman nəfəs də almadan belə,
durub gözlədiyin görüş yerlərin,
bir də ki, həsrətli anları unut.

O ilk görüşün vüsalın unut.
Unut, o insanın xəyalın unut.

Çıxart ürəyindən at o insanı.
At onu, necə ki, kağız parçasın
əlində sıxaraq, atdığın kimi...

Yuxuma gəl

Sevəcəyəm səni gülüm,
Nə qədər var canda canım.
Sənsiz dünya bir heç mənə,
Təkcə sənsən, sən gümanım.

Gözlərimi yumdum, yatam,
Sən yuxuma gəldin gecə.

Söhbət etdik ta sübhədək,
Yatdım bilmirəm heç necə

Sənsiz günüm bir gün deyil,
Yuxuma gəl, heç olmasa.
Yuxularda dindir məni,
Hərdən də gül, heç olmasa.

Çıxıb yadımdan gülüşün,
Yox, yaddaşım pozulmayıb.
Gəlsən məlhəmdi gəlişin,
Bu bəxt mənə yazılmayıb?

Vəfasızmı deyim sənə,
Yoxsa tale belə yazmış?
Bəlkə mənim o bəxt payım
Dumanlıqda, çəndə azmış?

Gözləmə sən məni

Gözləmə sən məni, daha gözləmə,
Qayıdıb yanına dönən deyiləm.
Qürurum, vüqarım əlçatmaz yerdə,
Endirə bilməzsən, enən deyiləm.

Günahım yox ikən dedim, bağışla,
Hirs ilə, hikkəylə gəldin üstümə.
Dedim, gec olacaq sən anlayanda,
Sən bilə – biləmi durdun qəsdimə?

Sənsizlik ağırdı, amma dözəcəm,
Incitdin özündən, necə deməyim?
Yolumuz ayrıldı soyuqluğundan,
Olan həqiqəti səncə deməyim?

Bir gün duyacaqsan sən məni əlbət,
Bəlkə də yadına düşməyəcəm heç.
Bəlkə deyəcəksən xəyallarında
Bağışla, gəl mənim günahımdan keç.

Gözləmə sən məni, daha gözləmə,
Yanına dönməyə səbəb qalmadı.
Günahkar özünsən, demə ki Ümman
Illərin dostluğun vecə almadı.

Bir gözələ

Jurnalist Şəlalə Nərimana

Çox gözəl adına şeir yazmışam,
Bax belə gözəli görməmişəm heç.
Sevginin diliylə danışsalar da,
Qəlbimi hər kəsə verməmişəm heç.

Artıq boş deyildir sevgi ünvanım,
Olsaydı sevərdim, sevməmək günah.
Bənzəmir Leylaya, Züleyxa kimdir?
Təkrarsız yaradıb onu O – Allah.

Tanrım muradını yetirmiş onun,
Bəxtinin qisməti öz yanındadır.
Incisi, yaqutu əhatəsində,
Coşqun şəlaləsi al qanındadır.

Get yaşa ömrünün Tanrı payını,
Sənlə sevgisin bölən kəs ilə.
Çıxmasın qarşına bədxahlar heç vaxt,
Dost ol, dost qədrin bilən kəs ilə.

Çox gözəl adına şeir yazmışam,

Imkan eylədikcə hələ yazacam.
Qızılgül, bənövşə, lalə, reyhana,
Ürəyim istəyən gülə yazacam.

Bu sevgi payını

Şairə Fərqanə Yusifqızına

Mən necə deyim ki sevmə ürəyim,
Bu sevgi payını Tanrım göndərib.
Gözlərim seyr edib, duyubdu qəlbim,
Bu sevgi payını Tanrım göndərib.

Qəlbimin açarı onu sevəndə,
Saxlayır, qoruyur yeri güvəndə.
Nə gözəl bəxşişdir, şadlan – sevin də,
Bu sevgi payını Tanrım göndərib.

Bir dünya sevgidən doya bilmərəm,
Sevgisiz dünyanı duya bilmərəm.
Qəlbimə qadağa qoya bilmərəm,
Bu sevgi payını Tanrım göndərib.

Qəlbimdə yarımın taxtını qurdum,
Aləmi eşqimlə bir – birnə vurdum.

Sevgimin yolunda keşikdə durdum,
Bu sevgi payını Tanrım göndərib.

Deyirlər sevgi yox, sevmək hədərdi,
Sevgiyə baş qoşmaq dərddi – kədərdi.
Mənimsə sevgim var, ləldi – gövhərdi,
Bu sevgi payını Tanrım göndərib.

Başımın bəlası

Gözündən axıtma yaş gilə - gilə,
Hədərdi, qəlbimə girə bilməzsən.
Mən özgə aləmdə, özgə ruhdayam,
Sən mənim dünyamı görə bilməzsən.

Sən mənim başımın bəlası olma,
Çəkdiyim özümə yetər, bəsimdir.
Bu yollar yamanca yorubdur məni,
Ağrılar – acılar ötər, bəsimdir.

Yazmayıb baxtıma yazan adını,
Get gözəl, baxtını uzaqda axtar.
Mənim səltənətim sənինçün deyil,
Get gözəl, taxtını uzaqda axtar.

Mən sevə bilmərəm səni, ey gözəl,
Hissin, duyğuların səni aldadır.
Bu yaşda sevgimin ünvanı başqa,
Bu sevgi müqəddəs, dadı bal dadır.

Sən ömrün yazında, mən qışındayam,
Mənim məhəbbətim "dondurar" səni.
Nə olar toxunma, toxunma mənə,
Ümmanın sevgisi yandırar səni.

Donmuş baxışlar

Bilmirəm nə deyir donmuş baxışlar,
Bəlkə də ən böyük məna var orda.
Bir az hərarəti, bir azca odu,
Bir az da bəmbəyaz, soyuq qar orda.

Nə olar yandırma – yaxma qəlbimi,
Onsuz da içində dərdləri çoxdur.
Dost üçün açıqdır nə zaman gəlsə,
Biganə kəslərçün sədləri çoxdur.

Heç səni unutmaq olarmı, denən?
Xəyal eylədiyim "bəla"san, gözəl.

Şirin də, Leyla da bir əfsanədir,
Həqiqi Şirinsən, Leylasan, gözəl.

Daha baxışlar da o baxış deyil,
Daha hərarəti, közü qalmayıb.
Əriyib, qurtarıb qəlbimin yağı,
Dilimin deməyə sözü qalmayıb.

Nələrdən xəbərim olduğun bilsən,
Deyərsən, gör nələr çəkibdir Ümman.
Bir gözəl qəlbimə əbədi hakim,
Qeyrisi orada olarmı mehman?

Sevsəydim...

Mən sevsəydim bir sal daşı,
Canlanardı, gül açardı.
Mən sevsəydim bir lal daşı,
Cuşa gəlib, dil açardı.

Sevmiş olsaydım əgər ki,
Dillənərdi, söz deyərdi.
Bəzənərdi gəlin kimi,
Yaşıl, güllü don geyərdi.

Bəs niyə sən dinməyirsən,
Bəlkə qəlbin buza dönmüş?
Bəlkə də varmış alovu,
Daha tamam yanıb, sönmüş.

Kaş sevməzdim mən heç səni,
Daş dinərdi, sən dinmədin.
Daş dönərdi daşlığından,
Inadından heç dönmədin.

Bir xaraba yurd yeridi,
Sanki sənin o ürəyin.
Bayquşa da gərək deyil,
Sənin olarmı gərəyin?

Göz yaşı

Qısqanma göz yaşın, qısqanma, gülüm,
Onsuz da gözəllər qısqanır məni.
Hər sevən bu qədər qısqansa əgər,
Neynirəm qıraqda dostu – düşməni.

Yuyar yanaqları, yuyar göz yaşı,
Zərif təbəssümlər dünyaya dəyər.

Gözlərdən axdıqca billur damlalar,
Kirpiklər hər dəfə gözə baş əyər.

Təkcə sən ağlama, sən ağladıqca
Qəlbimin telləri qırılır bir – bir.
Mən sənə təsəlli, ümid verirəm,
Qalmayıb özümdə dözüm, nə səbr.

Baxıb gözlərinə xəyal etdikcə,
Sanıram cənnətin özündəyəm mən.
Yanağa bir gilə yaş süzüləndə,
Elə bil çeşmənin gözündəyəm mən.

Bir az da ürəkdən ağlasan gülüm,
Sanaram şəlalə axır – tökülür.
Sən Allah ağlama, sən ağladıqca
Qəlb evim talanır, uçur, sökülür.

Sandım ki

Yanımdan astaca bir gözəl ötdü,
Mən ondan nə sevgi, nə pay istədim.
Demədim boylanıb, bax biz tərəfə,
Mən ondan nə kömək, nə hay istədim.

Mən ondan nə uma bilərdim axı?
Bu qızmar istidə su da ummadım.
Gecələr yuxum da, çəkildi ərşə,
Onu düşündükcə göz də yummadım.

Yaradan bir mələk yaratmış onu,
Gözlərim gözünə baxanda gördüm.
Sanki işıqlandı bir an içində,
Süzülüb gözləri axanda gördüm.

Qəlbimdən keçəni deyə bilmədim,
Elə bil lal oldu dilim, dinmədi.
Yaxşı ki dinmədi, sözüm ucada,
Durduğu məqamdan düşüb – enmədi.

Ilahi, Sən özün hifz elə, qoru,
Gül üzlü çöhrələr vaxtsız solmasın.
Sevməyə pak ürək, saf sevgi ver ki,
Küləklər tellərin açıb, yolmasın.

Yoxdur sevgi

Aldatmayın özünüzü,
yoxdur sevgi, yalan vardır.
Ürəkləri oğurlayan,

qəhərləyən,
zəhərləyən
bir şər vardır, ilan vardır.
O sevgidə yoxsa yanğı, yoxsa istək,
yoxsa əgər bir təravət,
yoxdur sevgi, yoxdur demək.
Bu sevgidə xəyanət çox,
bu sevgidə qəbahət çox.
Istəmirəm belə sevgi qismət ola
nə doğmaya, nə qeyriyə,
nə doğruya, nə əyriyə.
Sevir bir oğlan bir qızı,
dildə ona can – can deyir.
Utanmadan, çəkinmədən
yalanlardan libas geyir.
Yoxdur sevgi, yoxdur bu gün.
Bu bir müşkül, bu bir düyün.
Atasının pullarını sağa – sola
xərcləyən qız,
gənc oğlanın lap elə bil
göydən düşübdür əlinə.
Bax bu səbəbdən qatıbdır
balı – şəkəri dilinə.
Ya da bir qız bir oğlanın
yol eyləyib ürəyinə.
Maşın da var, var – dövlət də,

daha qıza nə gərəkdir.
Fırlat onu sağa – sola,
gəz bulvarda, gəz qol – qola.
Min maşına gəz şəhəri,
qaldırsın oğlan təkəri.
Kim uydurub sevgi sözün?
Yoxdur sevgi, yoxdur bu gün.
Bu sevgi həzz alıncadı,
aldı, demək sevgi bitdi.
Saxta sevgi, yalan sevgi
yalanlarla sona yetir.
Doğru sevgi yalanlara
bax beləcə qurban gedir.
Yoxdur sevgi, yoxdur daha.
Belə saxta sevgilərlə
necə gedək bəs sabaha?
Ey oğlanlar, siz ey qızlar,
bu qəflətdə yatmaq yetər.
Röyadan tez oyanın ki,
Ömür keçməsin beşbetər.
Oyanın ki, bir gənc ömür
çirkablarda sürünməsin.
Gözəl dünya gözünüzə
ehtiraslı görünməsin.

Daşa dönmüş ürək var

Baş – başayam mən dərd ilə, qəm ilə,
Yoxdur sevgi, daşa dönmüş ürək var.
Çox oynadı pərvanə də şəm ilə,
Yoxdur sevgi, daşa dönmüş ürək var.

Xəyal dolu bir aləmin yox isə,
Can deyəcək bir həmdəmin yox isə,
Ağlamırsan gözdə nəmin yox isə,
Yoxdur sevgi, daşa dönmüş ürək var.

Şirin dillə bir urək oyadılsa,
Sevinməmiş atəş – oda atılsa,
Sevgiyə bir ağu – zəhər qatılsa,
Yoxdur sevgi, daşa dönmüş ürək var.

Sevgi yolu olmayıbdır cəfasız,
Əsl aşiq olarmı heç vəfasız.
Bir istək ki olacaqsa şəfasız,
Yoxdur sevgi, daşa dönmüş ürək var.

Hardan tapım indi Leyli – Məcnunu,
Dünyatək çatıbmı eşqin də sonu?
Ümmançun olsa da bir eşq qanunu,
Yoxdur sevgi, daşa dönmüş ürək var,

Özümdən küssəm yaxşıdır

Istədim ki, səndən küsüm,
bir quru sözə dəymədim?
Amma ki, vaz keçdim yenə.
Öz – özümə sual etdim,
sənə qalıb insanların,
ya dünyanın dərdi – səri?

Mənası yox
küsməyin də,
külək kimi
əsməyin də,
özümdən küssəm yaxşıdır.

Səbəbkar da,
günahkar da
var isə də, yox isə də
o da mənəm,
mənəm ancaq.
Bu da bəxtimin qisməti,
bu da taleyin naxşıdır.

Kimlərdənsə inciməkdən,
kimlərdənsə küsməkdənsə,

özüm – özümdən inciyib,
özümdən küssəm yaxşıdır.

Nərgiz gülüm

De, indi hardasan, haralardasan,
Özünü istədən, ey nərgiz gülüm?
Özünə nə yaman aşiq olmusan,
Səbəbin deməsən mən hardan bilim?

Dolanıb, gəzirsən sən bu aləmi,
Tapa bilmisənmi qəlbin sevəni?
Varmı səni səndən çox istəyən kəs,
Tapa bilmisənmi sən o güvəni?

Mən səni verməzdim özgə birinə,
Sıxardım qəlbimə, qoxulayardım.
Deyərdim, bir həzin nəğmə oxu sən,
Baş qoyub dizinə yuxulayardım.

Amma qismətini sən özün ara,
Mənim xəyallarım özüm üçündür.
Səni oxşamağım, səni öyməyim
Gözəllik heyranı gözüm üçündür.

Bəxtində bir sevgi qisməti varsa,

Gəlib ürəyində yurd salacaqdır.
Həsrətin, kədərin, qəmin əlindən
Inan ki, inan ki o alacaqdır.

Darıxmışam

Yaman darıxmışam
sənինçün gülüm,
Nə gecəm bilinir,
nə də səhərim.

Səhv düşüb gecəylə
səhərin yeri,
Çoxalıbdır çox olan
qüssə – kədər, dərdi – sərim.

Gecələr ötsə də
sükut içində,
Verməyir, verəmməz də
Bir günəşli günün yerin.

Özümlə həmsöhbət,
müsahibəm mən,
qarışıq salıram
çox sözün yerin.

Yaman darıxmışam
gözlərin üçün,
Qəlbimin məlhəmi
sözlərin üçün

İnanmıram

Yerlə göy bir olsa da
dedi, daha inanmam
Sənin bircə sözünə,
doğruna, nə düzünə.

Dedi, tapşırıram
səni sənin özünə.
Inanmıram eşqinə,
sevgi – məhəbbətinə.
Bundan sonra baxmaq da
istəmirəm üzünə.

Yorma nahaq özünü,
inanmıram əsla mən
inana bilmərəm də
sənin yalan – doğruna,

nə də mənlə qurduğun
bu səmimiyyətinə.

Inansam inanaram
təkcə qəbahətinə,
ünvanına deyilən
çirkin xəyanətinə.

Gözəl qadın

Bir gözəli sevmək üçün
bilirsənmi nə gərəkdir?
Bir gözələ ürək vermək
bilirsənmi nə deməkdir?

Çox səbəb var, çox tələb var,
sevmək üçün bir gözəli.
Hələ desən bir ədəb var,
saysaq zaman aparacaq.

Surətpərəstdir çoxları.
Gözəllik tək zahirdə yox,
gözəllik iç dünyadadır.

Gözəllik ismətdə – arda ,
abırdadır – həyadadır.

Gözəl olmaq davranışda,
əxlaqdadır,
ismətdədir,
namusdadır.

Gözəl olmaq səliqədə,
səhmandadır.
Gözəl olmaq
ruhdadır – candadır.

Gözəlliyin özü isə
damarlarda sevgi ilə
dövr eyləyən
al qandadır.

Mən səndə sevmişəm nəyi?
Necə ovsunladın
bilmirəm düzü,
sinəmdəki bu ürəyi?
Yalnız sədaqətinlə,
sevdiyinə ürəyində oyatdığın
sevgi – məhəbbətinlə.

Inandırdın qəlbimi,
əl açıb mən göylərə
çağırdım öz Rəbbimi.
Şükür sənə İlahi,
yaratmısan bir belə
gözəli, var etmisən.

Halal olsun, ey gözəl
qadınlıq ismətinə.
Halal olsun qəlbdəki
saf sevgi şəfqətinə.

Sevgi bir ocaqdı

Sevən qəlblər daşa dönüb susursa,
Günahkarı zamandımı, andımı?
Əsl aşiq yazdı qəlbə eşqini,
Vəfasızlar baxıb heç utandımı?

Aşiq insan bir aləmdi özündə,
Qəlbindəki sevgisi də bir aləm.

Sevgisiylə baş – başasa sevən kəs,
Bilməz əsla qüssə – kədər, nə də qəm.

Hansı qəlbdə Yaradanın odu var,
O ürəkdə sevgi çağlar bulaqtək.
Daş qəlblərə sevgi dolmaz, olsa da,
Gələr – gedər yoldan ötən qonaqtək.

Məcnun deyil hər ürəyin sahibi,
Bu çöllərdə leylasını axtarsın.
Sevgi nə ləl, nə gövhərdi axtaran
Orda – burda əlasını axtarsın.

Sevgi qəlbdə çatılmış bir ocaqdı,
Qorumasan yellər əsər, söndürər.
Sevgi dilsiz – ağızsız bir lalı da,
Simasının cizgisiylə dindirər.

Gözəl dedim

Gözəl dedim bir gözələ,
Naz elədi, üzdü məni.
Gülümsədi şirin – şirin,
Gizli – gizli süzdü məni.

Dedim məni üzmə belə,
Nazı – qəmzə edən gözəl.
Ürəyimi parçalayıb,
Iynələyib, didən gözəl.

Sevgimə biganə gözəl,
Qəlbin niyə daşdı sənin?
Söylə, niyə biganəsən,
Yoxsa qəlbin boşdu sənin?

Boş qəlb çöllük – boş bir səhra,
Bəlkə də bir barsız ağac.
Ondan sevgi umanlara,
Çətin olsun yardım, əlac.

Sənə gözəl deyən yerdə
Quruyaydı dilim, gözəl.
Qəlbimdə də deyilsən ki,
Səni ordan silim, gözəl.

Gəl gedək uzağa

Gəl gedək uzağa,
gəl gedək, gülüm.
Gözdən, könüldən uzaq bir yerə.
Nə bir görən olsun,
nə də ki, bilən.
Gəl gedək günəşin çıxdığı yerə,
Hərarət alaq şəfəqindən,
nurundan.
Gəl gedək uzağa,
gəl gedək, gülüm.
Bir ömür yaşayaq,
indiyə kimi saysız aşiqlərin
dadmadığı, görmədiyi,
sürmədiyi bir ömürü.
Bəlkə zilə qalxıram mən,
bəlkə həddi aşıram mən.
Denən gülüm, denən, bəlkə
ağlım itib, çaşıram mən?
Çaşdığım sənin üçün,
çaşdığım özüm üçün.
Həqiqəti anladan
həqiqi sözüm üçün.
Nəsillərə qalacaq
alovum – közüm üçün.

Gəl gedək üzağa,
gəl gedək, gülüm…

Gül və bülbül

Gül xar ilə qol – boyundu əzəldən,
Bilə - bilə bülbül ağlar hələ də.
Xəzan gəlcək gül solar, bülbül susar,
Çox yazıqlar bülbülə də, gülə də.

Gül bülbülsüz, bülbül gülsüz dərd eylər,
Birin həsrət, birin xəzan öldürər.
Gül xar ilə başa vurar ömrünü,
Bülbül isə xəyallarda gül dərər.

Əsl sevgi Yaradana sevgidi,
Varsa kimdə vardı sübut – sənədi.
Ölüm ki var, Haqqın əmri aşiqə,
Cismən ölür, ruhu yaşar əbədi.

Könlüm

Səndən ötrü dərd eləyən könlümün
Təsəllisin necə verim, bilmirəm?
Birdən məndən bir tər qönçə istəsə,
Hardan tapım, hardan dərim, bilmirəm?

Mənim könlüm hərdəmxəyal deyildir,
Bu gün birin, sabah birin səsləsin.
Mənim könlüm saysız dostun ünvanı,
Iki gözəl adın necə bəsləsin?
Dörd tərəfi eşq ilə sarılsa da,
Sənsiz boşdur, sevgisi yox içində.
Yoxluğunu xəyalınla var etdim,
Öz yeri var ürəyimdə heçin də.

Bu eşq

Dərmədik barın – bəhərin,
Gəldi bu eşq, getdi bu eşq.
Bir baharda duyduq ətrin,
Bir payızda bitdi bu eşq.

Macal tapıb duymadıq heç
Necə olur dadı – tamı?
Qaldırmadıq şərəfinə
Heyf, gülüm bir eşq camı.

Kimlər isə həsəd çəkdi,
Bəlkə gözə gəldi bu eşq.
Sən bilmirəm necə oldun,
Məni oxtək dəldi bu eşq.

Mənim sevgim

Mənim sevgim bir dəryadır, çox dərin,
Səndən başqa kim bilir ki, bilməz heç.
Əsl aşiq sevgisidir bu sevgi,
Hər gözələ əyilməz heç, ölməz heç.

Mənim sevgim hər sevgiyə bənzəməz,
Mənim sevgim tükənməzdir, nəfsi tox.

Hər aşiqin qismətinə yazılmaz,
Bu sevgidən tək – tək olur, hətta yox.

Soruşmayın, mənim sevgim ayrıdır,
Mənim sevgim yerə – göyə , Allaha.
Mən sevgimi bəxş etmişəm aləmə,
Bu sevgisiz tez bataram günaha.

Sevilən çox, sevən çoxdur, olacaq,
Mənim sevgim tək sevgi yox, eşqidir.
Mənim sevgim bənzəməz hər sevgiyə,
O zirvəyə qalxmaq üçün məşqidir.

Mənim sevgim bir çeşmədir, qaynayır,
Ürək döyündükcə aşıb – daşacaq.
Çox öyünüb yormuram aşiqləri,
Mənim sevgim hüdudları aşacaq.

Niyə gəlmisən

Ustad şair Musa Yaqubun
"Niyə gəlmisən" şeirinə

Ələyin ələnib, xəlbirin göydə,
Qayıdıb üstümə niyə gəlmisən?
Deyəndə qalmadın, getdin, indisə
Qayıdıb üstümə niyə gəlmisən?

Ağzımda nar kimi çatladı dilim,
Nə dedimsə dedin, mən hardan bilim.
Sən mənə nə qədər verdin dərd – zülüm,
Qayıdıb üstümə niyə gəlmisən?

Bilirsən atalar deyən söhbəti,
Gözəllik olmayıb, olmaz əbədi.
Indi soruşuram azmısan, nədi,
Qayıdıb üstümə niyə gəlmisən?

Nə olsun olanlar keçib – ötübdür,
Düşünmə yaddaşım düşüb, itibdir.
Varlığın qarşımda durub – bitibdir,
Qayıdıb üstümə niyə gəlmisən?

Bir əlin olacaq, bir də ki, başın,
Keçmişi çözəcək hələ yaddaşın.
Qalıbmı mənimlə dava – dalaşın?
Qayıdıb üstümə niyə gəlmisən?
Nə vaxtdı kamanın ayrılıb oxdan,
Vurduğun yaralar sağalıb çoxdan.
Mən necə yaradım möcüzə yoxdan,
Qayıdıb üstümə niyə gəlmisən?

Hardan gəlmisənsə qayıt, get ora,
Inanma salasan sən məni tora.
Qoyma təzə nırxı köhnə bazara,
Qayıdıb üstümə niyə gəlmisən?

Sevə bilsəydim

Bir gün xəbər aldım özüm – özümdən,
Hər hüsnü gözəli sevim – sevməyim?
Baharda dünyanı sevməyə nə var,
Payızda xəzəli sevim – sevməyim?

Mən sevə bilsəydim sevərdim sözsüz,
Yalçın qayaları, sal daşı hətta.

Sevərdim qupquru çölləri, düzü,
Sevərdim bu yolda savaşı hətta.

Yaxşını, gözəli sevməyə nə var,
Eybəcər, çirkini sevməkdir hünər.
Qəlblərdə mərhəmət hissi çox olsa,
Məkrsiz yaşayar hər insan – bəşər.

Deyirlər savabdı

Deyirlər, savabdır bir gözəl görmək,
Bir imkan eyləyib görsən yaxşıdır.
Ağıllı – kamallı dürüst birinə
Sevməyə qəlbini versən yaxşıdır.

Çalış ki, ömrünü boşuna gəzmə,
Eşqin badəsinə zəhəri süzmə.
Zamanı yetməsə meyvəni üzmə,
Ağacdan düşməmiş dərsən yaxşıdır.

Bülbül vurğunudur gülün – gülzarın,
Gəlişin çox istər yazın – baharın.

Dəyəndə qəlbinə sevdiyin yarın,
Hərdən qılığına girsən yaxşıdır.

Deyirlər səvabdır bir gözəl görmək,
Adına ən gözəl gülləri dərmək.
Az olar bir qucaq gülü göndərmək,
Gülləri yollara sərsən yaxşıdır.

Düşmə, hər gözəlin düşmə dalınca,
Bu həsrət çəkəcək sənin olunca.
Zəhləni tökəcək birin alınca,
Ömrünü təklikdə sürsən yaxşıdır.

Bu sevgidən olmayıb

Əsrlərin o üzündən
üzü bəri gələnədək,
bizim sevgiyə bənzəyən
yaddaşlarda bircə sevgi
qalıbmı heç?
Bu sevgidən olubmu heç?
Çox sevilən – sevən olub,
inam olub, güvən olub,
bu sevgidən olmayıbdı, olmayacaq.

Bəlkə oldu.
Ocaq kimi neçə ürək alovlandı.
Yandı, yandı közə döndü.
Yavaş – yavaş közün özü
əriyərək külə döndü.
Kül oldusa demək söndü.
Amma bizim bu eşqimiz
tükənmədi, tükənməz də.
Bu sevgidən bəlkə də heç
ürəklərə dolmayıbdı.
Bu sevgidən olmayıbdı, olmayacaq.
Bəlkə oldu.
Bu sevgini biz yaşadıq.
Bu sevgini qəlbimizdə
biz böyütdük, biz daşıdıq.
Var olubdur, bu gün də var.
Hələ sabah, əsrlərlə var olacaq.
Belə sevgi solarmı, de?
Solmayacaq.
Bu sevgidən olarmı, de?
Olmayacaq.
Bu sevgidən olmayıbdı, olmayacaq.
Bəlkə oldu.

Qəlbin sənin olmayacaq

Qəlbin sənin olmayacaq,
Sən sevdaya düşsən bir gün.
Istər istə, ya istəmə
Yanacaqsan inan hər gün.

Yana – yana duyacaqsan
Ilk məhəbbətin dadını.
Bir gün məcnun qoyacaqlar
Duyub, bilənlər adını.

Ataların sözü doğru,
Eşqin olmaz tərs – avandı.
Sən sevən sevə – sevməyə,
Bir də gördün dandı andı.

Sevmə məni

Sevmə məni, sevmə gözəl,
Mən özümü sevmirəm heç.
Şair hərdəmxəyal olur,
Mən özümü sevmirəm heç.

Sən bir gözəl, sən bir mələk,
Tanrım sənə olsun kömək.
Məni sevmək nəynə gərək,
Mən özümü sevmirəm heç.

Bağla incə beli, gözəl,
Dara ipək teli, gözəl.
Bülbül sevir gülü, gözəl,
Mən özümü sevmirəm heç.

Bağları sev, nübarı sev,
Dağları, həm də qarı sev.
Lap istəsən əğyarı sev,
Mən özümü sevmirəm heç.

Ömür gedərsə havayı,
Etmə hay – həşir, harayı.
Məndən umma sevgi payı,
Mən özümü sevmirəm heç.

Sən Ümmanı sevmə, ey gül,
Sevmə, ey saçları sünbül.
Bu eşq inan mənlik deyil,
Mən özümü sevmirəm heç.

Getdi

Sürət ilə yanımdan
Maşın qaz etdi getdi.
İçində vardı gözəl,
O da naz etdi, getdi.

Gördüm işvəsi boydan,
Deyən gəlirdi toydan.
Çağırdım, döndü hoydan,
Dərdi yüz etdi, getdi.

Qaldım dərdi – qəm ilə,
Xəyallı aləm ilə.
Gözlərimi nəm ilə,
Qəlbi köz etdi, getdi.

Göz yaşımı silməyə,
Bir də gələ - gəlməyə.
Çox çalışdım bilməyə,
Nəyi söz etdi, getdi?

Buz əriyər baharda

Şaxtalı qışdandımı
qəlbin də buza dönmüş.
Odu – alovu yoxdu,
bəlkə qaralıb, sönmüş.

Hətta qışın özündə
hardasa bir isti var.
Şaxtası, ayazıyla
bir vüqarı, şəsti var.

Vüqarlısa deməli,
isti vüqarındadır.
Saflığı, şəffaflığı
bəmbəyaz qarındadır.

Billura bənzər buzu
cilalanıb elə bil.
Hər ilin öz nəfəsi,
bax belə gəldi bu il.

Qar yağdı, şaxta düşdü,

buz bağladı sular da.
Sənin qəlbini bilməm,
buz əriyər baharda.

Sənin yerinə

Susub dursan sən beləcə, ey gözəl,
Danışacaq dilim, sənin yerinə.
Tanrım sənə kaş qıymasın, heyifsən,
Izin versin ölüm, sənin yerinə.

Nolar mənə bircə demə, hələ döz,
Bağrım başı yanıb, yanıb olub köz.
Sevə – sevə, gülə – gülə de bir söz,
Necə sevim gülüm, sənin yerinə?

Bu sevdaya qatdım əcəb başımı,
Nə vaxt düyünlədim, çatdım qaşımı.
Silməliykən sən mənim göz yaşımı,
Denən, mənmi silim sənin yerinə?

Sevgim elə içimdəcə qarıdı,
Göz yaşlarım axdı – axdı, qurudu.

Hirsin – hikkən, məni yamanca yordu,
Necə gülüm, gülüm, sənin yerinə?

Bir gözəl Ümmanı əgər çaşdırsa,
Ağıllı davranar başı, başdırsa.
Birdən səni, gülüm zaman coşdursa,
Necə olum həlim, sənin yerinə?

Yorma gözlərini

Səni həsrətinə qovuşdurarmı,
Yanağa süzülən o göz yaşları?
Ağlamaq, sızlamaq kara gəlmirsə,
Çətin ki, yumşalda qəlbi daşları.

Yorma gözlərini, baxma yollara,
Daş qəlbli insandan nə gözləyirsən?
Baxma bu yollara, baxma, əbəsdir,
Yolları nahaqdan sən izləyirsən.

Bu yollar həsrəti alıb qoynuna,
Sənինsə gözlərin vüsal axtarır.

Həqiqi sevgidən bixəbər kəslər,
Sevgisiz ürəklər halal axtarır.

Gözlərinin sil nəmini, ağlama,
Qəlbidaşlar göz yaşını görməsin.
Tanrım özü sığal çəksin telinə,
Zalım biri sevgi vermir, verməsin.

Ağlama, həsrətin gözünə düz bax,
Həsrəti həsrət qoy, öz həsrətinə.
Gözünün nəmini həsrət siləmməz,
Inan daxilinin bəsirətinə.

Dərdim

Gözlərim yenə də səni axtarır,
Hardasan, ey Dərdim, nigaranam mən?
Bilirəm bir daha dönməyəcəksən,
Bir xəbər göndərdim, nigaranam mən.

Təsəlli versəm də özüm – özümə,
Gözləri yollarda qalan yenə mən.
Həqiqət aşiqi olsam da əfsus,
Həsrətlə dartışan, yalan yenə mən.

Nə qədər aldadım özümü bilməm,
Sənin gedişinin dönüşü yoxdur.
Kimsə düşünməsin şairin yəqin,
Bir özgə vərdişi, peşəsi yoxdur?

Mənim könlüm dərd yuvası deyildir,
Amma neynim, sevincindən qəmi çox.
Şadlansam da, hey gülsəm də nə yazıq,
Qəlbdə dərdim, gözlərimin nəmi çox.

Ümmanam, dərdlərim dərddən bezibdir,
Harada olsam da tapacaq məni.
Sanki quduzlaşıb bir köpək kimi,
Fürsət eylədikcə qapacaq məni.

Heç oldu

Gözümü yollardan çəkdim o gündən,
Bilirəm heç zaman dönməyəcəksən.
Mənim ürəyimdə yerin əbədi,
Bir daha danışıb – gülməyəcəksən.

Acılı – şirinli xatirələrdə
Daim canlanırsan xəyallarınla.
Dikib gözlərini zənd ilə mənə,
Çəkirsən sorğuya suallarınla.

Üz – üzə oturub danışmadıq da,
Ürəkdə qədərsiz sözümüz qaldı.
Qaraldı gur yanan od – ocağımız,
Külünün içində közümüz qaldı.

Gözümü yollardan çəkdim o gündən,
Kül altda közərən köz də heç oldu.
Tanrı dərgahına apardı səni,
Mənim arzularım öldü, puç oldu.

Qaldım xəyallarla yalqız, baş – başa,
Hər gün ölürəm mən, dirilirəm mən.
Mənimçün həyatın mənası bitmiş,
Nə sabah maraqlı, nə də ki dünən

Görüşdük

Görüşdük sirr dolu bu dünyada biz,
Sən gedən yolları mən qayıdırdım.
Hər anı yaddaşda sən yatırırkən,
Bir – bir çözələyib, mən oyadırdım.

Keçilən yolların var daş – kəsəyi,
Dəyəcək ayağa nə vaxtsa o daş.
Ömrümüz dəryada yelkənsiz qayıq,
Üzür mənzilinə, o yavaş – yavaş.

Bu qayıq gec ya tez bir gün batacaq,
Üzdüyü suların dərinliyində.
Şərəflə sahilə bəlkə çatacaq,
Yalnız xəyalların şirinliyində.

Bu həsrət hələ çox yandıracaqdır,
Sağında – solunda gəzərsən məni.
Uzaqdan çox baxıb, hönkürəcəksən,
Yadlartək kənardan süzərsən məni.

Yox sənə qəlbimin qapısı bağlı,
O qəlbin özünün pasibanı var.

Hökm ilə sevilmək, sevmək olarmı?
Hər doğan sevginin öz ünvanı var.

Səndən öyrəndim

Qəlbinin atəşi – odu sönübdür,
Dağ boyda bir sevgi niyə enibdir?
Deyirsən, ürəyin daşa dönübdür,
Mən belə sevməyi səndən öyrəndim.

Mənimsən deyirdin, bitdimi eşqin?
Sevdiyi ünvana yetdimi eşqin?
Yollarda azdımı, itdimi eşqin?
Mən belə sevməyi səndən öyrəndim.

Qəlbimin özünün vardı bir yükü,
Gəlişin eylədi bu yükü iki.
Neynirdim sənintək ortaq – şəriki?
Mən belə sevməyi səndən öyrəndim.

Bilərsən

Qəlbindəki buz dağını
əridə bilsən bir gün,
onda mərhəmət nədir,
sevgi nədir bilərsən.
Bilərsən dərd – qəm nədir,
Gözləri qərq eyləyən,
o göz yaşı, nəm nədir.
Duyarsan insanları,
canlı – cansız nə varsa,
bilərsən aləm nədir.
Ömrümüz – həyatımız
bir sınaq, imtahandır.
Kim necə çıxacaqdır
bu imtahan, sınaqdan.
Kim necə çıxacaqdır
məzəmmətdən, qınaqdan.
Bunlar Tanrı hökmünə,
taleyə - baxta bağlı,
onun tənzim etdiyi
zamana – vaxta bağlı.

Buludlar

Al günəşi kölgəsində gizlədib,
Ay – ulduzu büküb, bələr buludlar.
Gözlərini sıxıb bir an içində,
Göydən yerə yağış çilər buludlar.

Dərddənmi ağlayar, yoxsa sevincdən,
Amma ki, torpağa bir can verər o.
Istidən quruyan susuz çaylara
Yaşamaq ümidi, aman verər o.

Çəkdikcə canına yağan yağışı,
Yenidən canlanır, dirilir torpaq.
Olumla – ölümün əhatəsində
Var olub bu aləm, elə bu sayaq.

Yağış

Yağan yağış, aramla yağ,
Dənə – dənə, gilə – gilə.
Elə yağ ki, damlaların
Dönməsin leysana, selə.

Yağ şumlanmış torpaqlara,
O saralmış otlaqlara.
Suya həsrət yataqlara,
Yağ dənizə, yağ çay – gölə.

Yağ qəlbimin təşnəsinə,
Yağ dağların çeşməsinə.
Baxma yerin üşüməsinə,
Yağ torpağa, yağ sünbülə.

Yağış, tanrının nurusan,
Göz yaşıtək dupdurusan.
Kəndlinin sadiq curusan,
Yağ əkinə, yağ düz – çölə.

Sənə dəniz, çaylar möhtac,
Nəfəs kəsən aylar möhtac.
Paralanmış laylar möhtac,
Yağ, ey yağış, sən nur çilə.

Külək

Əsən külək qulağıma
nəsə deyir, pıçıldayır,
nəsə anlatmaq istəyir.
Nəyi isə yerə – göyə,
xəyalında, gümanında
demək üçün pıçıldayır
Əsən külək bəlkə elə
sevgisinin ünvanını,
ya adını pıçıldayır.
Bəlkə də bir dərdi vardır,
dərdi varsa nə boydadır?
Bəs sevgisi
şirindirmi,
ucadırmı,
dərindirmi?
Əsən külək şeh düşən o
yaşıl çəmən,
çiçəkləri,
çiçəkdəki bircə – bircə
ləçəkləri sığallayır.
Ağacları,
budaqları sığallayır,

sevə – sevə
yarpaqları sığallayır.

Xəyal kimi

Xəyallarım alıb məni,
döndü geri, o illərə.
Keçib, gedən gəncliyimi
axtarmağa.
Orda ötən zamanları,
acıları – şirinləri,
orda ötən ilk sevgimi,
dincliyimi axtarmağa.
Yaddaşımı çözələyib, düşündükcə
həm sevincim, həm kədərim
dövrələyir, alır məni.
Gülür üzüm, yaşadıqca
yenidən o xoş anları.
Acılarım – ağrılarım
susuz, mələr ilan kimi
düşündükcə çalır məni.
Xəyallarım qalsa yaxşı
yaddaşımda xəyal kimi.
Yada salıb ürəyimi

üzməməkçün, əzməməkçün.
Olanlara ürək üzüb,
yenə – yenə dözməməkçün,
yaşamaqdan bezməməkçün.
Xəyallarım qalsa yaxşı
yaddaşımda xəyal kimi.

Bir gün görüşərik

Bir gün görüşərik,
qismət olarsa.
Ya mənim
qarışıq xəyallarımda,
ya sənin
acılı – şirinli olan,
qəlbində yurd salmış xatirələrdə.
Bir gün görüşərik,
durub üz – üzə,
Bax onda susmağın
yeri yox daha.

O zaman əl açıb, dua edərik,
bizi görüşdürən

böyük Allaha.
Yox, bu da olası
olacaq deyil,
Dünya ki fanidi,
müvəqqətidir.
Şair babam düz deyibdir,
dünya əzəldən elə
duracaq bir yer deyil,
qalacaq bir yer deyil.

Sevgi payı

Dost axtarır cümlə bəşər,
Aləmlərin həbibisən,
Şəfa üçün gəzənlərin,
Loğmanısan, təbibisən.

Həsrətliyəm sevginə mən,
Mənə sevgi payı göndər.
Dondurdu qış, sazaq məni,
Tanrım, bahar, yayı göndər.

Bir eşq dolub ürəyimə,
Hərarəti, odu Səndən.
Bu iltifat, bu pay Sənin,
Eşqə ürək vermək məndən.

Şaxta – sazaq dondursa da,
Qəlbim atəş – odla dolu.
Ünvanı bəlli sevgimin
Həmişə açıqdır yolu.

Bu yol ilə Cananına
Saysız aşiq can aparıb.
Neçəsini Canan özü
Yanına mehman aparıb.

Ağlama

Buludlar aləmin dərdi – sərinə,
Bəs sənin gözlərin niyə ağlayır?
Buludlar ağlasa torpağa məlhəm,
Sənin göz yaşların ürək dağlayır.

Baxıb buludlara ağlama, bəsdir,
Göz yaşın tökürsə buludlar töksün.
Sən çəkə bilməzsən dünyanın dərdin,
Qoy onun dərdini çəkənlər çəksin.

Ağlama mərhəmət istəmək üçün,
Baxan tapılarmı göz yaşlarına?
Səbr elə, pisliyə meyl edənlərin
Pisliyi gələcək öz başlarına.

Hərdən də istəsən ağla doyunca,
Bəlkə acıları dəf edə bildin.
Qınama dünyanı, soruş özündən,
Bu fani dünyaya bəs niyə gəldin?

Bu da Yaradanın hökmü – rizası,
Sən də bu düyaya gəlməlisənmiş.
Yaxşı – yaman, əyri – düzü nə varsa,
Həm görüb, həm də ki bilməlisənmiş.

İncimə

Küsmə, incimə barı sən,
Hərdən özümdən küsürəm.
Yoruluram bu yollarda,
Yolda izimdən küsürəm.

Yad yaxşıdır bəzən dostdan,
Istəməsən saymayırsan.
Dostu hər vaxt atmaq olmur,
Axı dostdan doymayırsan.

Ağlı başda olanlardan,
Mükəmməl kəsdən deyirəm.
Milyon dəfə dost deyəndə,
Bir dəfə pisdən deyirəm.

Rəqibdirlər yaxşıyla pis,
Bunu hətta uşaq bilir.
Yaxşı olmaq yaxşılara,
Gülməyin, o pisdən gəlir.

Aqildən hörmət götürüb,
Pisdənsə ibrət almışıq.

Içimizdə pisliklərə
Zəfər – qələbə çalmışıq.

Kim özüylə bacarmırsa,
Dünyada ən aciz odur.
Mənəm – mənəm deyən varsa,
Bilin ki, ən cılız odur.

Gəncliyim

Səni axtarıram, bilmirəm niyə,
Ey illər içində itən gəncliyim?
Harada, nə zaman tərk etdin məni,
Göz açıb – yumunca ötən gəncliyim.

Gözəllər içində leylalar gördü,
Hər biri ayrıca böyük əsərdi.
Təkcə birisinə gül – çiçək verdi,
Bir eşqin bağında bitən gəncliyim.

Acılı – şirinli keçib – ötüşüb,
Dərs alıb həyatdan, qaynayıb – bişib.

Gördü ki, saçlara tək – tək dən düşüb,
Xəbərsiz sərhədə yetən gəncliyim.

Səni axtarıram, soruşam incə,
Mən səni yaşadım anlat, de necə?
Qatdım, qarışdırdım dərdi sevincə,
Mənim eşq odunda ütən gəncliyim.

Döymə ürəyimin qapısın

Döymə, ürəyimin döymə qapısın,
Narahat eyləmə, zaman itirmə.
Necə var elə də döyünsün – vursun,
Nə sevgi, nə nifrət, nə kin gətirmə.

Boş deyil ürəyim, içində aləm,
Sirri açılmayan əfsanələr var.
Orada sevgi var, hətta soyuqluq,
Orada həmdəm var, biganələr var.

Mənimdi ordakı o sevgi payı,
Bəlkə də olmayıb heç bir məcnunda.

O qəlbin özünün özəlliyi var,
Yox hələ bir qayda, yox bir qanunda.

Döymə, ürəyimin döymə qapısın,
Yanından ötüşüb getsən yaxşıdır.
Nə varsa qəlbində apar özünlə,
Bax belə yaxşılıq etsən yaxşıdır.

Döymə, ürəyimin döymə qapısın,
Düşünmə hər kəsçün o qapı açıq.
Tanrı xatirinə çıx get yolunla,
Insafın var isə əgər azacıq.

Nə ehtiyac var

Qəlbimi qırmağa nə ehtiyac var?
Getmək istəyirsən çıxıb, getginən.
Sevərək qurduğum bu eşq qalasın,
Kim sənə dedi ki, yıxıb, getginən?

Sənin xatirən də mənə ögeydi,
Çalışıb üstündən bir xətt çəkəcəm.

Fikir, xəyalımda sənlə bağlı
Nə varsa çıxarıb çölə tökəcəm.

Heyf xərclədiyim anlara, heyf,
Sevgi də bu qədər ucuz olarmış?
Həqiqi sevginin varmı ölçüsü?
Acılar, qəm – kədər ucuz olarmış.

Mənim etdiklərim bir səhv, bir yanlış,
Sənin isə etdiyin əsl xəyanət.
Mən azad aşiqəm, öz seçimimdə,
Sənin fikirlərin qaranlıq – zülmət.

Indisə baş alıb çıx get yolunla,
Bir də ürəyimə girə bilməzsən.
Açıq bax dünyaya öz gözlərinlə,
Mənim gözlərimlə görə biməzsən.

Öldürəcək bu qız məni

*Müğənni **Məhəbbət Kazımovun***
xatirəsinə

Bu nə qamət, bu nə sima?
Öldürəcək bu qız məni.
Əzab verir bilə – bilə,
Öldürəcək bu qız məni.

Çox çəkmişəm cəfasından,
Xəbərsizəm vəfasından.
Dirilmədim şəfasından,
Öldürəcək bu qız məni.

Söz verib bir gün gəlməsə,
Eşqini mənlə bölməsə,
Nə cəkdiyimi bilməsə,
Öldürəcək bu qız məni.

Külək kimi əsib, keçsə,
Ayrılıq şərbətin içsə.
Bir başqasın sevib, seçsə,
Öldürəcək bu qız məni.

Gözəllikdə təkdi gözəl,
Dağ üstə dağ çəkdi gözəl.
Məni qəmə bükdü gözəl,
Öldürəcək bu qız məni.

Göz yaşları

Gözlərdəki kədər nədir, bilmirəm?
Bilərdim, zamanı saxlaya bilsəm.
Mən bağban olsaydım, sən yaz çiçəyi,
Dərib qoxlayardım, qoxlaya bilsəm.

Hökm edir yenə də bu qəm karvanı,
Hər addım, hər qədəm özünü öyür.
Meydan sulamağın bu qəm – kədərin,
Yanağa süzülən gilələr deyir.

Torpağı suvarsa bu göz yaşları,
Qorxuram cücərdər, həsrət bitirər.
Qidasın sevgidən alan ürəklər,
Bu qismət payını bir gün itirər.

Neyləyim kədərin – qəmin yox olsun?
Yaradan əmrinin çözümü yoxdur.

Qəm – kədər sevinclə əbədi qardaş,
O kəslər bezir ki, dözümü yoxdur.

Gözünün yaşıyla bacarsan əgər,
Yu bu çirkabları, yu, yaz çiçəyi.
Nə sən günahkarsan, nə mən günahkar,
Bilənlər bilirlər doğru - gerçəyi .

Gülüm, mənə çay gətir

Ay Sonası, çay gətir mənimçün,
Qələndərəm pay gətir mənimçün.
Kənd yeridir qəndi çox işlətmərəm,
İstəyirsən say, gətir mənimçün.

Cəfər Cabbarlı

Təşnələbəm, gülüm yaman,
Nolar mənə bir çay gətir.
Qəndin cana faydası az,
Istəyirsən lap say gətir.

Tələsmirəm, çay dəm alsın,
Məxməri olsun rəngi də.

Birin, üçün, beşin uçim,
Bəlkə yanğımı səngidə.

Neynirəm Seylon çayını,
Çaydan boldur Azərbaycan.
Armududa gətir çayı,
Ya da doldur ver bir fincan.

Təki mənə çay gətir sən,
Çayda vardır cana fayda.
Nə vaxt içsən iç, yeri var,
Payız – qış, yazda – yayda.

Mənim deyil bu dünya

Mənim deyil fani dünya,
Əyrisi çox, oğrusu çox.
Özgə haqqın tapdalayan
Haqsızı çox, doğrusu yox?

Mənim deyil heç bu dünya,
Məndə yalan axtarmayın.

Qaşınmayan yerdən çıxan,
Qırmızı qan axtarmayın.

Gözlər niyə kor olubdur,
Dillər niyə danışmayır?
Qulaqlar da kar olubdur,
Haqsız haqla barışmayır.

Göz ağardır hər gün mənə,
Bəxtimin yolun kəsənlər.
Diş qıcayır, acıq verir
Bayraq kimi hey əsənlər.

Mənim deyil heç bu dünya,
Çoxdan məndən alınıbdır.
Heç sənin də deyil dünya,
Çünki havan çalınıbdır.

Hava ağa – bəy havası,
Oyna bu meydan sənindir.
Allah mənim Allahımdır,
Hoqqabaz şeytan sənindir.

Azma yolu bilə - bilə.
Şeytanlayar şeytan səni.

Özü çoxdan şeytanlaşıb,
Bu oyuna qatan səni.

Mən qocalıram

Yükləyib çiynimə zaman ağrını,
Necə çəkəcəyəm vecinə deyil.
Kaş arsız olaydım, ağrı – acıdan
Olaydım xəbərsiz, olaydım qafil.

Bir körpə gözümün önündə hər gün,
Böyüyür bəxtəvər, mən qocalıram.
Bu zalım bəşərə dərs verə – verə,
Sanki özlüyümdə bir öc alıram.

Görəsən yaxşımı – yamanmı çoxdur,
Qoysaq tərəziyə hansı çox gələr.
Dünyaya xəlq olan bəşər ömründə,
Daha çox ağlayar, yoxsa ki gülər?

Olsun

Heç özünü yorma sən,
Dünya qəliz, sorma sən.
Bir qəlbi də qırma sən,
Qoyma gözlər nəm olsun.

Darda Tanrını səslə,
Qəlbində sevgi bəslə.
Bu istək, bu həvəslə
Xoş günlərin cəm olsun.

Kəm etməz qəmi badə,
Uyma ona nəbadə.
Yaşa ömrünü sadə,
Qoyma qəddin xəm olsun.

Doğru düzü axtarar,
Haqqı yüzü axtarar.
Ocaq közü axtarar,
Pərvanəyçün şəm olsun

Xoşlamıram tərifi,
Güdmürəm xeyri – nəfi.
Mənə göstər arifi,
Silahı qələm olsun.

Bir kimsə yoxsa

Halını duyacaq bir kimsə yoxsa,
Durub bu yollara baxmaq hədərdi.
Sən qismət payını Tanrıdan istə,
Kim bilir bəlkə də bir gün göndərdi.

Tanrı mərhəməti bitib – tükənməz,
Ancaq ki, zamanı, vaxtı bilinməz.
Nə varsa yaxşı – pis ömrə yazılır,
Bircə vergülü də hətta silinməz.

Bir sınıq ürəyi ovuda bilsən,
Tanrı nəzərindən qaçan deyildir.
Günəşi buludla pərdələyən O,
Bir izin verməsə saçan deyildir.

Yollar

Baxıram yollara, hey yorulmadan.
Baxıram diqqətlə, baxıram hər gün.
Nə gələn, nə gedən gözə dəyməyir,
Insan həsrətində yollar didərgin.

Bu yollar yüyənsiz köhlənə bənzər,
Gah sağa, gah sola, gah da düz gedir.
Bu yollar mənzilə çatdırır bizi,
Hərdən də yubadır, hərdən ləngidir.
Bu yollar beləcə aparır bizi,
Yaxşıya – yamana yetişmək üçün.
Bu yollar hər kəsə, hər bir insana
Yol açır özündə, daşısın köçün.

Hərdən bu yolları ot basır tamam.
Ləpirlər, nə izlər, nişan qalmayır.
Bu yollar de, kimə, nəyə gərəkdir?
Kimlərsə oraya bir iz salmayır.

Arzular

Nə qədər arzular qaldı arzutək,
Bitib – cücərmədi, sal daşa döndü.
Yandırdı içimi həsrətin odu,
Bu dünya gözümdə qaraldı, söndü.

Arzular ocaqsız, külsüzdü əfsus,
Bədənsiz – ayaqsız, əlsizdi əfsus.

Arzular dodaqsız, dilsizdi əfsus,
Qalandı içimdə, sirdaşa döndü.

Gah döndü kamana, gah da oldu ney,
Gah mənə dost oldu, gah da ki, ögey.
Durub düşündükcə havalandı hey,
Ancaq xəyalımda bir quşa döndü.

Aparır

Ürəyimdə tükənməz sevgi ilə,
Bu yol məni sevdiyimə aparır.
Mən dünyanın hər üzünü görmüşəm,
Bu yol məni sevdiyimə aparır.

Yerdə sevdiklərim mənə dərd verir,
Doğru kəs,hoqqabaz, həm namərd verir.
Bu dərdi cəmlər yox, tək – tək fərd verir,
Bu yol məni sevdiyimə aparır.

Dərd deyirəm, dərd dediyin nədir bəs?
Dərdsiz insan ömr eləyir çox əbəs.
Içimdəki bir səs deyir, get – tələs,
Bu yol məni sevdiyimə aparır.

Bilmirəm bu necə sevgidir

Bilmirəm bu sevgi necə sevgidir,
Dəryada tələtüm, tufandı sanki.
Görünmür içində nələr olduğu,
Dağların başında dumandı sanki.

Gah yazda ələnən narın yağışa,
Gah da hərarətli günəşə bənzər.
Əvvəli şirindir, sonrası ağu,
Bir az da, qalibsiz döyüşə bənzər.

Ürəyim

Ürəyim, içində həsrət böyütmə,
Bacarsan bir sevgi, məhəbbət bəslə.
Təkcə bacarırsan biganə olma,
Nə etsən eylə sən, şövqi – həvəslə.

Acıma vəfasız kimsə halına,
Kəsər ümidini güman yerindən.

Həzər vəfasızdan, həzər, Allahım,
Hifz elə bundan da lap betərindən.

Çətindir vüsala – murada yetmək,
Saralma heyvatək, çatlama nartək.
Mümkünmü əğyarla bir yola getmək,
Sev doğru aşiqtək, həqiqi yartək.

Heç belə kövrəlmə, belə çatlama,
Yanma hər vəfasız birindən ötrü.
Dərdləri içində yığma, qatlama,
Donma hər vəfasız birindən ötrü.

Ürəyim bu qoca dünyadan geniş,
Içində bir şər – şəbədə yox , olmaz.
Saysız bədxah oxlayıb, oxlasa da,
Şəfqətindən sevgisindən o qalmaz.

Adın nədir

Adın nədir, soruşdum?
Cavab verdi, Sibelcan.
Dedim, gözəl mümkünsə
su ver mənə bir fincan.
İçim soyusun ürək,
Ötsün – keçsin həyacan.
Soruşdum ki, sən kimsən,
buralarda sakinsən?
Dedi, müsafirəm mən.
Elə gələn gündən də
bu şəhəri, bu yeri
çox – çox doğma bilmişəm.
Dedim, doğma bildiyin,
söylə nədir, danış, de?
Dedi, gözəldir bura,
insanları gözəldir.
Hamı mən bilən dildə,
hamı türkcə danışır.
Məni tanıyanlar da
mənə dosttək yanaşır.
Dedim, məni bağışla,
çox gözəlsən, qəşəngsən.
Qalmadı bir həsrətim,

Qalmadı həyacanım,
müsafir Sibelcanım.

Səbrsiz deyiləm

Mən sənə can dedim, sən isə qaçdın,
Vəfasız dünyatək vəfasız olma.
Məcnuntək bir leyli xəstəsiyəm mən,
Təbibim, tək sənsən şəfasız olma.

Bu nazı – qəmzədi, yoxsa ki, inad,
Sevirsən – sevmirsən bilə bilmirəm?
Suallar başımda var – gəl eyləyir,
Qəlbimdən adını silə bilmirəm.

Səbrsiz deyiləm, sevgim yolunda,
Həqiqi aşiqəm, sevgim dərindir.
Kim gəldi qəlbimdə yer edə bilməz,
Bir yer var qəlbimdə, o da sənindir.

Hər yeri ocağım bilmirəm

Qəlbimin istəyib, sevmədiyini,
Mən necə istəyim, sevim bilmirəm?
Dünyanın hər yeri cənnət olsa da,
Hər yeri ocağım, evim bilmirəm.

Bu hamar, asfaltlı yollar nədir ki,
Çınqıllı, kəsəkli yollar qəşəngdir.
Dibçəkdə bəslənən güllər göz oxşar,
Tikanlı, iynəli kollar qəşəngdir.
Geyimli – kecimli bir kobud kəsdən,
Qaloşu palçıqlı kəndli əladır.
Öküz arabası başqa bir aləm,
Bərq vuran maşınlar başa bəladır.

Sevirəm tərəqqi, inkişafı da,
Əgər sevindirə bilirsə məni.
Neynirəm bu qədər malı – sərvəti,
Unutduracaqsa dostu – düşməni.

Get

Get daha, getməyin vaxtı çatıbdır,
Get nolar aləmi zülmət sarmadan.
Elə ləngimədən yol eylə, get sən,
Yatanlar yatmışkən, hələ durmadan.

Yorub köhlənini uzanan yollar,
Bəlkə də qocalıb əldən düşübdür.
Atları keçiddə dəyişməyirlər,
Səsin də azalıb, zildən düşübdü

O halda deyilsən, haldan düşmüsən,
Oynaya bilməzsən sən o havaya.
Artıq getməlisən, dayanma, çıx get,
Heç ümid eyləmə dərdə dəvaya.

Kaş mənim yerimə

Dünya gözəldir, sevin – sevilin

Ey məni dünyaya gətirən anam,
Səhhətin,qüvvətin itirən anam,
Kaş mənim yerimə qoca dünyaya
bir qara, lal – dinməz daş gətirəydin.

Dünyanın dərdlərin çəkmək üçünmü,
Dərd ilə, qəm əkib biçmək üçünmü
gətirdin, ey anam məni dünyaya?

Kaş arsız olaydım, ar etməyəydim.
Bu gözəl dünyanı öz varlığımla
tutub – durmayaydım, dar etməyəydim.

Mən kimə lazımam, bilmirəm düzü?
Varlığım – yoxluğum kimə gərəkdir?
Duymadım dünyanın ləzzətin, dadın,
Acılar üstünə hey acı gəldi.

Mən asi deyiləm Yaradanıma.
Çox əfsus içdiyim suyum, şərbətim,
halımı dəyişən mey acı gəldi.

Ey məni dünyaya gətirən anam,
kaş ki, bu dünyaya mənim yerimə
övlad yox, bir qara daş gətirəydin.

Dərd eləmə dərdləri

Dərd eləmə dərdləri, boğ içində,
Dünya hər gün gəl – gedində, köçündə.
Zamanı var alınacaq öcün də.
Zalım dünya belə qalmaz həmişə,
Gərək biz də hazır olaq döyüşə.

Var olmuşuq, bu dünyada varıq biz,
Sanmasınlar lalıq, koruq, karıq biz.
Kim deyir əfəlik, ya bekarıq biz?
Adımızdan düşmən düşür təşvişə,
Gərək biz də hazır olaq döyüşə.

Bu dünyadan nə aparıbdır gedənlər,
Yaxşılar, ya da ki, özün güdənlər.
Hələ çoxdur açılmayan nədənlər.
Fağırların səsi çatıbdı ərşə,
Gərək biz də hazır olaq döyüşə.

Tarixlərdə at oynadıb bu millət,
Dostlarına etməyibdir xəyanət.
Sözümüz söz, əsla deyil bəlağət,
Düşmən kimdir gələ, bizə ilişə,
Gərək biz də hazır olaq döyüşə.

Mən uşaq deyiləm

Mən uşaq deyiləm ki,
çəkəsən addımbaşı
sorğu – sual edəsən.
Gəldiyimi – getdiyimi,
yollarımı güdəsən.
Mən yaxşı – pisi görən,
pislərdən çox irəli,
yaxşılar yaxşısından
arxadayam – geriyəm.

Mən milyardlar içindən
seçilmişdən biriyəm.
O – Tanrım mənə ağıl,

dil verib, söz veribdir.
Qəlbləri isitməyə
qığılcımdan odlanan,
sübh çıxan günəş kimi
od verib, köz veribdir.

Tanrım yaxşını – pisi,
doğru - əyri olanı
görməkçün göz veribdir.
Ümmana haqq deməyə
düz – sərrast söz veribdir.

Cocuq dünyası

Cocuqlar dünyanı
başqa cür görür,
Onlarçun bu dünya
adi dünyadı.

Çörəkdi bu dünya,
sudur bu dünya.
Atadır, anadır,

qardaş, bacıdır.

Güləndə şipşirin,
sanki bal kimi,
ağlarsa acıdır,
budur bu dünya.

Kaş bütün insanlar
fani dünyanı
qayğısız, sadəlövh
cocuqlar kimi
bəsit və çox sadə
görə biləydi.

Cocuqlartək kaş insanlar
dünyaya sevgisin
verə biləydi.

Qəlbimiz dərd yuvasıdır

Ədəblə - ərkanla ucadır insan,
Ucalıq alçalıb, əyilə bilməz.
Hörməti sərvətlə ölçülən biri,
Sonadək ucalıb, öyülə bilməz.

Heç zaman üzülüb pərişan olma,
Tanrıdan nə gəlsə səbəbsiz deyil.
Kimsəyə baş əymə, baş əy torpağa,
Torpağa baş əyən ədəbsiz deyil.

Kədəri – qüssəni sal yola, getsin,
Onsuz da qəlbimiz dərd yuvasıdır.
Nə qədər şadlığa can atsaq da biz,
Dünyanın havası – qəm havasıdır.

İnsan

İnsanı insan əzir,
Biri toxdur, biri ac.
Biri kefdə - damaqda,
Biri axtarır əlac.

Tanrı yaratdıqların
Niyə kimsə öldürür?
Yoxsa bu iş - əməllə
Bir etiraz bildirir?
Tanrıya etirazı,
İnsanın öz səhvidir.

Quyu qazır özünə,
Bu da sonu, məhvidir.

Doğru axtardım

Sağımda – solumda doğru axtardım,
Baxdım əriyirəm yalan içində.
Yaxşını aradım, sanki iynəni
Axtarıb, gəzirəm saman içində.

Gecəylə gündüzün rəngi bir oldu,
Yaxşıyla – yamanın cəngi bir oldu.
Insanın zirəngi, ləngi bir oldu,
Keçirdim ömrümü ziyan içində.

Düşündüm, əyrilər düzələr bir gün,
Düşündüm, açılar çox müşkül, düyün.
Insanlar əlimdən çəkdi ətəyin,
Yaşadım bir ömrü güman içində.

Ağ – qara ilana lənət dedilər,
Belədir bu tale – qismət dedilər.
Hökmlə aldılar, "hörmət" dedilər,
Tək qaldım döyüşdə, meydan içində.

Arxayın deyiləm

Bir bıçaq saplasa
hər dost kürəyə,
bəs onda düşmənə
nə ehtiyac var?

Arxayın deyiləm,
ola bilmərəm
söykəyim arxamı
dosta, dayanım.

Qəflətdə yatmağın
ziyanı vardır.
Elə bu səbəbdən
ərşə çəkilib

gözümdə dincliyim,
yuxum da yoxdur.
Yatmış olsam belə,
şirin yuxuma
bir haram qatsam da
gərək oyanım.

Çax – çax baş ağrıdır

Dəyirman öz işindədir,
Çax – çax yenə baş ağrıdır.
Yadlardan yoxdur bir ziyan,
Məni dost – yoldaş ağrıdır.

Nə ürəkdən atmaq olur,
Nə yadlara satmaq olur.
Nə də ki, unutmaq olur,
Bacıyla qardaş ağrıdır.

Məni yaxşı – pisdən də çox,
Qəlbidaş xəbisdən də çox,

Şarlatan iblisdən də çox
Yurddaş – vətəndaş ağrıdır.

Acım azalmır güləndə,
Göz yaşım bitmir siləndə.
Sirrimi aləm biləndə
Həmfikir, sirdaş ağrıdır.

Gedən getsin, öz işidir,
Pislik pisin vərdişidir.
Döyüş ər – şər döyüşüdür,
Güllə heç nə, daş ağrıdır.

Susmağın zərdən baha

Sözün yoxsa danışma,
Susmağın zərdən baha.
Dəyərli söz de, desən,
Hədyan danışma daha.

Yersiz sözün dəyəri
Bir çürük qoza dəyməz.

Haqlı söz deyən insan,
Haqsıza boyun əyməz.

Ənəlhəqq dedi Mənsur,
Çəkdilər bir gün dara.
Bəzən haqlı söz özü
Gəlməyir hətta kara.

Çalış elə söz danış
Inci olsun, dürr olsun.
Seç elə söz içində
Müəmma, nə sirr olsun.

Hər sözün öz dəyəri,
Hər sözün öz yeri var.
Yaxşı sözün alqışı,
Bəd sözünsə şəri var.

Əyilmə

Əyilmə heç kəsə məğrur dayan sən,
Əhsən söyləyənlər heyrətdə qalsın.
Təkləyə bilməsin bu zaman səni,
Təkləmək fikriylə həsrətdə qalsın.

Tanrının hökmündə cümlə bu aləm,
Bilirsən, Tanrının özüdür fələk.
Olmuşlar, olacaq göylərdən gəlir,
Bunları yaddaşa biz yazaq gərək.

Qəti xəyalına gətirmə ki, sən
Fələklə bir oyun oynayım bir gün.
Çoxları oynamaq istəyib, amma
Hələ açılmayıb çox müşkül – düyün.

Mərhəmət, sevgisin kəm etməsə də,
Haqq yolun azanın dizin çökdürüb.
Nə qədər inadcıl, tərs insanların
Ətəyə yığdığı daşı tökdürüb.

Ətəyə yığınca daşı – kəsəyi,

Cəm edək ağılı, toplayaq başda.
Bu dünya əzəldən cəng dünyasıdır,
Məğlub ayrılmayaq doğru savaşda.

Günah ancaq bəşərdə

Dünya köhnə olsa da
insanları müasir,
hər dəbə uyğunlaşan,
bir az da azğınlaşan,
əməlləri təptəzə,
bir azca da baməzə
həmin o insanlardı.
Bir yada sal, xatırla,
çıxıbmı yaddaşından
o əncir yarpaqları?
Nə zaman tərk edibsən
Tanrının təmənnasız,
əvəzsiz bəxş etdiyi
o cənnət torpaqları?
Günah ancaq özündə,
pozmusan düzənləri.

Ta o vaxtdan, zamandan
kiminsə acığına,
kimlərinsə bəhsinə
baş vurub çirkinliyə,
qul olmusan nəfsinə.
Hey vurnux, hey çabala
fikrin yenə də şərdə,
yaxşı bilir ki, hər kəs
günah ancaq bəşərdə.

Dünya və bəşər

Bu qədər eybəcər olmayıb dünya,
Başdan ayağacan çirkab içində.
Heç zaman bu qədər dolmayıb dünya,
Gələnlər gəlməkdə, köçən köçündə.

Əzəldən bir gözü gülən dünyanın,
Bir gözü dərdlərdən qan ağlayıbdır.
Indisə kor olub hər iki gözü,
Korluğu qəlbləri çox dağlayıbdır.

Yandırıb – yaxmışıq dünyanı yaman,
Bağrının başını köz eyləmişik.
Məzəmmət etmişik hərə bir yandan,
Ən böyük günahı biz eyləmişik.

Nə verdik dünyaya indiyə kimi,
Hay – həşir salmışıq, ala bilmirik?
Min oyun açırıq başına hər gün,
Şərsiz - şəbədəsiz qala bilmirik.

Bu boyda dünyanı bu cılız bəşər
Dolayıb barmağa, lağ – lağ eyləyir.
Özünün günahın yükləyib ona,
Hər gün günah edir, lap ağ eyləyir.

Dünya da, bəşər də Tanrı payıdır,
Dünyanı məzəmmət edə bilmərik.
Dünyaya bir yaman damğası vurub,
Ancaq özümüzü güdə bilmərik.

Dünyanı fani də biz eyləmişik,
Cənnətdə var ikən günah eylədik.
Pozub qaydaları, qayda yaratdıq,
Iş – işdən keçəndə min ah eylədik.

Bu dünya

İnsanın ağlının biləcəyimi,
Nə üçün boşaldı, doldu bu dünya?
Günahı özündə axtarsa yaxşı,
Zülümdən, xiffətdən soldu bu dünya.

Baxdı əyrisinə, baxdı düzünə,
Od qatdı yaxşının ocaq, közünə.
Haqq – nahaq söylədik hər an üzünə,
Deməyək, vəfasız oldu bu dünya.

Səhərdən axşama çalışanlar ac,
Bir qurtum saf suya, çörəyə möhtac.
Əzəldən fağırı əzir ehtiyac,
Ağrıyla – acıyla boldu bu dünya.

Demə

Ağlamağa – sızlamağa,
yana – yana danışmağa
dəyməz daha.
Ağıllı kəs cavanşırlər,

babəklərin
adın çəkib, özün bir də
öyməz daha.
Çünki daha haqqımız yox
igidlərlə öyünməyə,
söz deməyə.
Bu torpağın suyun içib,
nə də halal çörəyindən
bir tikəsin də yeməyə.
Axı niyə ər olmadıq?
Niyə ələ silah alıb,
döyüşən əsgər olmadıq?
Kimi deyir, qoymadılar,
kim də deyir, qardaş bizi
heç bir yerdə saymadılar.

Bunlar ki, bir bəhanədir,
amma bəhanə olsa da
çox möhtəşəm, şəhanədir.
Kimdir bizə dur söyləyən?
Torpağını, öz elini
düşməninə ver söyləyən?
Demə, əmrə tabe olduq,
dur dedilər, donduq qaldıq.
Lap tutalım belə oldu,
çıxmaq olmaz əmrdən heç,

Bəsdir qardaş, bu söhbətdən,
imkan varsa bu sözdən keç.

Onda sual eyləyirəm,
dedilərmi rüşvət alma?
Başqasının zəhmətinə,
əməyinə, çörəyinə
nəfs atma, meyl salma.
Dedilərmi? əlbətdə ki.

Bəs niyə de, alan alır?
Bəs bu qədər söz deyilir,
dur deyilir, bəs deyilir.
Rüşvətin qabağını kəs deyilir.
Kəsilməyir alış – veriş,
kəsilməyir gizli – gizli
söhbət, görüş.
Çox yazıqlar olsun sizə,
Çox yazıqlar həm də bizə.

Xəzan yeli

Xəzan yeli yarpaqları
salamlayır.
Saralmadan – solmadan,
yerə düşüb ayaq alta
tapdanıb, xışıldamadan
salamlayır.

Təmənnasız salamlayır.
Budağından,
doğma olan ocağından,
isti ana qucağından
ayrılmadan salamlayır.

Xəzəl olanda yarpaqlar
xəzan daha sərt olacaq,
Xəzəl üstə narın – narın
nur yağacaq –
yağış yağacaq,
duman – çənə bürünəcək
dağ – dərə,
Bir lal sükut çökəcəkdir
bu ətrafa – həndəvərə.

Giley

Pulum – param, varım da yox,
Demirəm ki, acam ya tox.
Sancılıbdır qəlbimə ox,
Dərdlərimi bilən yoxdur

Tərk elədi cur da məni,
Atıb, getdi darda məni.
Qoydu intizarda məni,
Dərdlərimi bilən yoxdur.

Nə xoş günüm, büsatım var,
Nə xoş anım, saatım var.
Gör nə acı həyatım var,
Dərdlərimi bilən yoxdur

Bir özüməm, bir Allahım,
İçimdəki dərdim, ahım.
Bilmirəm nədir günahım,
Dərdlərimi bilən yoxdur.

Dünya fani, ömür də az,
Mənim dəryam deyil dayaz.
Ümman, gündə min şeir yaz,
Dərdlərimi bilən yoxdur.

Kimə inanaq

Niyə mən deyərək kiçilirik biz,
Biz deyib bəs nədən ucalmırıq, de?
Dərbədər olmuşuq "mən - mən" deməkdən
Biz deyib nə üçün öc almırıq, de?

Dərbəndi itirdik, Borçalı getdi,
Əridi içində "mən - mən"deyən kəs.
Böyük dediyimiz unutdu bizi,
Harayçı olmadı özün öyən kəs.

Bəs kimə inanaq, dərd bilən olsun?
Dönməsin yarıdan getdiyi yolu.
Vətənin sərvətin sevməsin ancaq,
Bu xalqı bilsin o qanadı – qolu.

Hörmətlə – izzətlə ucaltdığımız,
Arxasın çevirir, tanımır bizi.
Bax belə "ehtiram", münasibətdən
Bir zaman itirdik qədim Təbrizi.

Dəyirman, çax – çax hesabıdır bu,
Onsuz da oyanan deyil yatanlar.
Dünya yaranandan ikili olmuş,
Alanlar alıbdır, satıb satanlar.

Yazılıb bəxtinə

Yazılıb bəxtinə millətin belə,
Yağışdan çıxaraq yağmura düşüb.
Keçibdir nə qədər oddan – alovdan,
Həyat qazanında qaynayıb – bişib.

Öyünub qəhrəman oğullarıyla,
Keçəl həmzələr də olubdu hər vaxt.
Igidlər nə qədər ucalıblarsa,
O qədər alçalıb, məsləksiz bədbəxt.

Niyə yaradırsan, Tanrım beləsin?
Bu torpaq mikrobsuz olsa yaxşıdır.
Elmli alimi qara yarası,
Ağıllı çobanı bəzək – naxşıdır.

Ziyanın kitaba, elmə dəxli yox,
Ilahi işıqdır ziya insanda.
Riyakar olursa alim elmiylə,
Eyibdir, yaxşıdır həya insanda.

Əqrəb deyilsən

Sən əqrəb deyilsən,
ondan betərsən.
Məqsədli – məqsədsiz,
hərdən ünvanlı,
hərdən də ünvansız
çalırsan məni.
Peşman edirsən hey
bir söz deyəndə,
elə bil quyuya
salırsan məni.
Sən əyri görürsən

düzümü hətta,
Söz deyə bilmirəm
nə yaxşı, nə pis.
Yarımçıq kəsirsən
sözümü hətta.
Bir gün dayanacaq
sinəmdə ürək,
qidası qurtaran
köhnə saatın
yorulub,
dayanan əqrəbləritək.

Haqq üzülməz

Bir “ol” deyib Tanrım bizi yaratdı,
Bir “və” ilə barışdımı baxtımız.
Nəfəs verdi, can bəxş etdi əvəzsiz,
Heyf, hədər getdi zaman – vaxtımız.

Nəfsimizin cəzasını çəkmişik,
Gec də olsa, tez də olsa sonda biz.

Gah mülayim, gah əzazil, gah fağır
Görsənirik gündə neçə donda biz.

Tanrı sevməz öz yolundan azanı,
Əvvəl – axır cəzasını alacaq.
Gecə - gündüz at oynadıb, çapanı
Fələk sonda öz toruna salacaq.

Haqq nazilər, amma tamam üzülməz,
Tanrısını çox sevənlər bilirlər.
Bircə köynək Ona yaxın olanlar,
Nəm gözləri təmənnasız silirlər.

Nə yaxşı ki, varsan

Şair Musa Yaquba

Nə yaxşı ki varsan,
ey böyük İnsan,
De, dərdin böyükdür,
yoxsa ki, sevgin?
Adi vətəndaşın,
adi insanın
bir gözü güləndə,
biri ağlayar.

Amma ki, şairlər
ağlayır hər gün.
Eyləyir qəlbini zalım dünyada
özü də bilmədən
didərgin, sürgün.
Qohuma, yadlara,
özünə ağlar,
hərdən də keçməyən
sözünə ağlar.

Yana – yana,
qana – qana,
dönə - dönə ürəyini,
parçalayar,
çarpaz dağlar.

Zaman səni itirməsin

Biz zamanı yox, zaman bizi itirir.
Molyer

Şair – publisist Polad Qazançılıya

Polad dədə, Tanrı səni qorusun,
Zaman səni itirməsin qoy hələ.
Yetmiş beş il bəxş eyləyib, yaşadıb,
Ardı gəlsin, bala – bala say hələ.

Kim düşünüb ömrü saya bağlayıb?
Bir şeyi ki, Tanrı verir, həm alır.
Yaradanın hökmündədir bu aləm,
Insanları nahaqq qüssə – qəm alır.

Gör nə qədər can itirib zamanlar,
Içində aqillər, cahillər olub.
Çərxi – fələk dəyişdikcə, döndükcə
Zaman – zaman gah boşalıb, gah dolub.

Ömrümüz ölümə gedən bu yolda,
Say – hesabı bilinməyən bir ara.
Ümman, gələn bir gün dönür haqqına,
Imkan eylə haqqı – nahaqqı ara.

Təkcə mən dəliyəm

Təkcə mən dəliyəm
fani dünyada,
Sağım da, solum da
hamı ağıllı.

Dünyanın gərdişin
başa düşməyən,
Onun işlərinə
heç alışmayan,

hələ bişməyən
dəlisi, sərsəmi,
xamı ağıllı.

Ağıllı olmayan,
ağıllanmayan
təkcə mənəm,
Təkcə mən dəliyəm,
tək mən beləyəm.

Əsla gözləməyin,
ağıllanacam,
sizin dediyiniz,
görmək istədiyiniz
insan olacam.

Yox, canım, heç zaman
ola bilmərəm.
Yaranışdan beləyəm,
axı mən dəliyəm.

Niyə deyib soruşmayın,
Heç işimə qarışmayın.
Mən beləyəm,
mən dəliyəm.

Ummuram

Bir ocaq çatmağa köz istədim mən,
Söz verən çox oldu, köz verənsə az.
Çoxları "qurbandı, gəl apar" dedi,
Söz verən çox oldu, üz verənsə az.

Kimdənsə ummuram daha mərhəmət,
Tanrımız hərənin öz payın versin.
Kim hansı niyyətlə Tanrı çağırsa,
Eşidib səsini düz payın versin.

Allahım uğurlu bir qapı açsın,
Qəlbində insanlıq, od olanlara.
Mükəmməl, çox şirin sevgi göndərsin
Bəşər sevincinə şad olanlara.

Hər gün səni gözləyirəm

Ananın yetməyəcəyi həsrət

Sənsiz ürəyimdə təpərim yoxdur,
Ataların dediyi o düşmənlərə
bir göz dağı – çəpərim yox.

Sən baharda gül – çiçəyim,
payızda barım - bəhərim,
qışda bəyaz qarım idin.
Tanrıdan ən şirin payım,
dövlətim,
sərvətim,
varım idin.
Sən mənim arxam, dayağım,
fəxrim – iftixarım,
Vüqarım idin.

Bir anım da sənsiz deyil,
yoxluğuna inanmıram.
Xəyalınla danışmaqdan
yorulmuram,
usanmıram.

Sözümün əvvəlində,
sonunda varsan.
Sənsiz vurmur sanki qəlbim,
gülmür üzüm,
qurtarıbdır elə bil ki
aşıb – daşan
təbim, sözüm.
Yaxşı bilir,
bilir Rəbbim.
Bilə - bilə ki
dönüşün yox,
hər gün səni gözləyirəm.
Bu yolları,
cığırları
gah ümidlə,
gah ümidsiz,
səni görmək həsrətilə
izləyirəm.
Bu ayrılıq bitən deyil, bilirəm.
Ayrılığın sonu yoxdur,
yoxdur, yox.
Tanrım verən
bu həsrətlə yaşayıram,
ürəyimdə ağırlığı bilinməyən,
heç bir kəslə bölünməyən,
nə boyda dərd daşıyıram.

Ruhumu oxşayan səs

Şirmayi dillərdə gəzən barmaqlar
Elə bil qəlbimin başında gəzir.
Bir zaman ruhumu oxşayan o səs
Indi vücudumu tapdayır – əzir.

Dondurur bu səsin sehiri məni,
Əridir şam kimi, bəyaz qar kimi.
Məni acılarla qoyur baş – başa,
Çatladır qəlbimi şirin nar kimi.

Xəyallardı indi daha təsəllim,
Nə barmaqlar, nə o dillər çalışmır.
Sənsiz günlər gündən – günə artsa da,
Yoxluğuna gözüm – könlüm alışmır.

Bu həmin musiqi – doğma musiqi,
Təkcə onu ifa edən başqa kəs.
Xırdalıqlar, gəzişmələr fərqlidir,
Şair, yorma heç özünü sən əbəs.

Dərd çəkməkdən dərd də bezib əlimdən,
Kaş bacarıb onu yola salaydım.
Bir özüm, bir dəftər – qələm olaydı,
Şirin – acı xəyallara dalaydım.

Ömür bitər, yollar bitməz

Bu yolların yolçusudur ömrümüz,
Ömür bitər, bu yollarsa bitməz heç.
Taleyimiz səpələnib yollara,
Keşməkeşlər yanımızdan ötməz heç.

Göz açandan çarpışırıq zamanla,
Ömrümüzün acısı çox şirindən.
Bu dünyanın çoxdu düyün, müşkülü,
Tanrım özü saxlasın bəd – şərindən.

Hər addımda bir sirri var, sehri var,
Şər qazanı hey qaynayır ocaqda.
Haqqı əzib, tapdalayan gör harda,
Zülm çəkir məzlumlar künc – bucaqda.

Yaxşılığa can atsaq da hər zaman,
Hərdən olur şeytan bizi azdırır.
Düşmən ilə bacarmağa nə var ki,
Dost deyənlər dosta quyu qazdırır.

Ömür hələ belə bitmir, ardı var,
Amma hərdən yarı yolda qırılır.
Insan ömrü mənasız ötüşəndə,
Bəzən özündən də bezir, yorulur.

Tanrının əmri var

Böyük el sənatkarı
Alxan Hacıoğluna ithaf

Nə ola, bir tələ qura biləydim,
Kəsəydim yolunu kədərin, qəmin.
Düşəydi qurduğum tora – tələyə,
Kaş yaxa bilməzdi canın aləmin.

Dərd gəlir, gələndə xəbər vermədən,
Girir ürəklərə, can üzə – üzə.
Elə bil dərs verir – bir həyat dərsi,
Yan deyir bizlərə, yan dözə – dözə.

Əcəb yaşayırıq əsarətində,
Dərd ilə kədərin göz görə – görə.
Çəkir sinəmizə hərdən bir dağı,
Sanki söyləyir ki döz, görə – görə.

Bir şirin dil ilə gələn acının,
Kaş girə biləydim qılığına mən.
Doldurub badəmi içərdim mütləq,
O ağrı – acının sağlığına mən.

Tanrının əmri var, kədər yalandı,
Bir gün yaranmışlar bir gün gedəcək.
Nəhayət, güldürüb kədəri – qəmi,
Təkcə sevdiklərin qəmgin edəcək.

Bəstəkar

Şərqdə ilk opera yazan qadın bəstəkar,
milyonlarla qəlbləri fəth etmiş
həzin, təravətli mahnılar müəllifi,
***Xalq artisti* Şəfiqə Axundovaya *itha*f**

Ey şərqin ən böyük sənətkar qızı,
Heyf sənsiz qaldı "Gəlin qayası".
Aldı ağuşuna apardı səni,
Hamının ünvanı o haqq dünyası.

Talesiz Talehə qovuşdun demək,
Əriyən qəlbinin daşı qalmadı.
Yumuldu gözlərin ağlamaz daha,
İçindən axacaq yaşı qalmadı.

Bir ömür yaşadın ağlı – qaralı,
Nə çəkdin içində özün bilirdin.
Gözünün yaşını elə sərasər
Gecələr axıdıb, səhər silirdin.

Ey şərqin ən böyük sənətkar qızı,
Əbədi qalacaq adın, əbədi.
Milyonların ruh qidası əsərlər,
Keçəcək hələ çox səddi, sərhədi.

Ölməyə tələsmə

Sən Allah ölməyə tələsmə belə,
Hələ ölmələlər ölməyib axı.
Sən hələ səbr elə, yaşa doyunca,
Ölüm qoy aparsın bədi – bədxahı.

Hələ görüləcək işin də çoxdur,
Işini – gücünü yarımçıq qoyma.
Aldanma hər sözə, söz qanun deyil,
Nə vədə inanma, nə sözə uyma.

Qaralmış ocaqlar alışmalıdır,
Qəlbindən od verib, yandırmalısan.
Bu yolda haqq olan çalışmalıdır,
Qanmayan olarsa qandırmalısan.

Sən Allah ölməyə baş qoşma hələ,
Hələ düşmənimiz ölməyib, sağdı.
Deyirlər bir işıq ucu yeri var,
Düşmən yeniləcək, bu xoş soraqdı

Qalmaz bu zamanə, qalmaz heç belə,
Əzilən əzəcək bir gün əzəni.
Tanrı verəcəkdir cəzasın bir gün,
Kim pozmuş olarsa səfi – düzəni.

Düzəlməz

Bir gün ölüb, gedəcəyəm ağımla,
Bu insanlar düzəlməyib, düzəlməz.
Görüşəcəm Yaradanım – Bağımla,
Bu əyrilər düzəlməyib, düzəlməz.

Yerlə – Göyün sahibidir O – Bağım,
Odur mənim Sahib Zaman – ƏlAğım.
Söz deməkdən partlayıb dil – dodağım,
Bu əyrilər düzəlməyib, düzəlməz.

Diqqət et, bir sümük, bir dəri kimdir,
Yaxın – uzaq, ya da ki, qeyri kimdir.
Tanıyırıq düz kim, ya əyri kimdir,
Bu əyrilər düzəlməyib, düzəlməz.

Baş əysə kimlərsə quruca nəfsə,
Əgər girişərsə gərəksiz bəhsə,
Xitab eyləyirəm bu gün hər kəsə,
Bu əyrilər düzəlməyib, düzəlməz.

Səbr edək, hər işi səbr düzəldər,
Düzəltsə dünyanı cəbr düzəldər.
Qozbeli öləndə qəbir düzəldər,
Bu əyrilər düzəlməyib, düzəlməz.

Cəmiyyətdəki ayrılıklərə etiraz

Qatma bizə özünü

Əxlaqdan danışmasın,
əxlaqı kəm olan kəs.
Düzlükdən dəm vurmasın
çox işi xəm olan kəs.

Birdən çıxar qarşıma
kərtənkələ, ilanlar.
Keyfimə doğrar soğan,
əqrəb kimi çalanlar.

Elə bil yaranıblar
şər – böhtanı yaymağa.
Bir sakit yer tapmıram
ayağımı qoymağa.

Bir ocaq qalayıram,
su səpib sulayırlar.
Acıqlı yalquzaqtək
vaxt – bivaxt ulayırlar.

Əgər yalquzaqsınız
gedin girin meşəyə.
Ya da eksponattək
salaq sizi şüşəyə.
Pisdən pisdir adətin,
yırtıcıdır xislətin.
Insanları incitmə,
artmayacaq hörmətin.

Gülsələr də üzünə
söyəcəklər dalınca.
Dondan – dona girirsən
istəyini alınca.

Yekəxana – yekəsən,
düzəlməyin çətindir.
Qışqır – bağır, hökm elə,
həşir sal, adətindir.

Eyib olar danışsam,
elə bilmə qorxuram.
Əminaman günlərçün
həsrətəm, darıxıram.

Ikibaşlı ilantək
sağa – sola baxırsan.

Bulanıq sular kimi
hansı səmtə axırsan?

Sual

Girsən də yüz cildə gündə,
Köməyinə yetməz hiylə.
Ağıllı ol, nə işin var
Bir ağılsız, giclə – səylə.

Yatıb – yatıb, oyanmısan,
Bu nə gündü boyanmısan.
Əda ilə dayanmısan,
Borcluyammı sənə, söylə?

Harda gəldi danışma söz,
Oynatma qaş, süzdürmə göz.
Sən nə alovsan, nə də köz,
Dost olmusan şərab – meylə.

Küçələrdə nə işin var,
Pis adətin, vərdişin var.
Deyirlər ki, görüşün var,
Neçə erkək, neçə bəylə.

Bir gün solar gül yanağın,
Boyaq götürməz dodağın.
Tapılmaz bircə qonağın,
Çox da getmə belə göylə.

Sərgərdansan bu yollarda,
Məskən salmısan qollarda.
Fikrin qalıbdı dollarda,
Fərqlənirsən başqa nəylə?

Ağıllı ol

Imkan eylə dinlə məni,
deyə bildim bəlkə nəsə.
Olmuşları deyəcəyəm,
dikbaşları əyəcəyəm.
Bağışlasın Ulu Tanrı,

pis kəsləri ifşa edib,
bəlkə də lap söyəcəyəm.

Qarğa kimi qarıldama,
cır səsin düşür başıma.
Sənə mənim baş qoşmağım,
hirslənib ya da coşmağım,
yaraşmaz mənim yaşıma.
Səhər – səhər gəlib niyə,
sözü çeynəyə - çeynəyə
zəhər qatırsan aşıma?
Sənin bildiklərini
deyəsən çoxdan,
lap çoxdan salmışam,
itirmişəm.
Danışırsan boş – boş, hədyan,
ey qəflətdə yatan oğlan.
Silkələnib oyan, bir dur.
İnsanlığın məktəbini
səndən xeyli, xeyli qabaq
öyrənmişəm, bitirmişəm.

Yaxşı yaxşı çox işlərin,
əməllərin dənini mən
bax bu torpağa əkmişəm.
Bacardıqca neçə – neçə

ağır yükün ağırlığın
çiyinlərimdə çəkmişəm.

Get gözümə görünmə sən,
bulandırma təmiz suyu.
Hardan gəlir sən kiminin
Heç bilmirəm kökü – soyu.

Get yat , oyaq olanlar da
rahat nəfəs ala bilsin,
arzularıyla baş – başa
xəyallara dala bilsin.

Pullanmısan

Bir az olsun mərifətin,
Bir azca da səxavətin.
Xoşuna gəl cəmiyyətin,
Nə olsun ki, pullanmısan.

Adamlıqda yoxsa yerin,
Olmaz əsla dərdi – sərin.
Çoxdur amma şər işlərin,
Nə olsun ki, pullanmısan.

Bu gün sənə dərs deyirəm,
Elə bilmə tərs deyirəm.
Çox danışma, bəs deyirəm,
Nə olsun ki, pullanmısan.

Maşın aldın yox təkərin?
Deyən qalxıbdır şəkərin.
Yamanca pisdir şakərin,
Nə olsun ki, pullanmısan.

Lovga – lovğa baxma dedim,
Şimşək kimi çaxma dedim.
Gəl yolundan çıxma dedim,
Nə olsun ki, pullanmısan.

Özün heyran öz işinə,
Avamı çəkdin dişinə.
Son qoy belə vərdişinə,
Nə olsun ki, pullanmısan.

Cibin dolub, acdır gözün,
Kimə lazım sənin sözün.
Niyə qızarmayır üzün?
Nə olsun ki, pullanmısan.

Hallanırsan içib meyi,
Göylərdə keçmisən leyi.
Bəyənmirsən sən heç nəyi,
Nə olsun ki, pullanmısan.

Qartal mənəm, sən qarğasan,
Hökm verirsən, darğasan?
Sunamisən, qasırğasan?
Nə olsun ki, pullanmısan.

Aldatdın neçə qadını,
Bir az azalt öz odunu.
Qabağa çəkdin qudanı.
Nə olsun ki, pullanmısan.

Qudan səni ötüb – keçib,
Sənin əlindən su içib.

Taylı tayın tapıb, seçib,
Nə olsun ki, pullanmısan.

Stul sənin, masa sənin,
Dolub – daşan kasa sənin.
Ət ilə kolbasa sənin,
Nə olsun ki, pullanmısan.

Kasıba vermə bir tikə,
Villa, saray tikə – tikə.
Canında var əda, hikkə,
Nə olsun ki, pullanmısan.

Sal yadına yaxş – pisi,
Olma belə pul hərisi.
Incidirsən sən hər kəsi,
Nə olsun ki, pullanmısan.

Pozma tərəzi – mizanı,
Alarsan haqdan cəzanı.
Bəsdir göstərdin əzanı,
Nə olsun ki, pullanmısan.

Sözdü Ümmanın silahı,
Başın üstə gör Allahı.
Bəsdir etmə çox günahı,
Nə olsun ki, pullanmısan.

Alver

Bu gün çoxu tacir olub,
Tacirlikdə mahir olub.
Bu bazara hər kəs gəlir,
Oğru – doğru, nakəs gəlir.

Nə istəsən var bazarda,
Toyuq – cücə, nar bazarda.
Alça, zoğal, şor satan var,
Parça – palaz, tor satan var.

Qardaş, hər şey satan gördüm,
Bir – birinə atan gördüm.
Fikirləşdim, düşündüm mən,
Xəcalətdən üşüdüm mən.

Sən demə heç bütün bunlar
Bir heç nədir, dözmək olar.
Bu bazara gedənlərdən,
Görən alver edənlərdən

Kim ayıq, kim yuxuludur,
Kimlər daha qorxuludur?

Bazarlarda ət satanlar,
Yoxsa ki, millət satanlar?

Var qənd satan, pərdə satan,
Var kənd satan,vədə satan.
Satan da biz, satılan da,
Atan da biz, atılan da.

Batan – batıran da bizik,
Yatan – yatıran da bizik.
Bizik qardaş, bizik, bizik,
Həm əyriyik, həm də düzük.

Özgədən yox haray, aman,
Bu boş xülya, bu boş güman.
Toxluq olsa gözümüzdə,
Əlac da var özümüzdə.

Rüşvət həsrəti

Eh, ala bilmir daha
rüşvət alan rüşvəti?
Astarı üzdən baha,
istəmir bu hörməti?

Hörmət indi səs salıb,
Xoruz kimi banlayıb.
Indiyədək kim alıb
Qorxu onu yanlayıb?

Vəzifə onlar üçün
rüşvət mənbəyi olub,
Rəngləri nədən bu gün
belə saralıb – solub?

Sabiranə

M. Ə. Sabirin heykəli önündə düşüncələr

Salam,
ey düzü – düz,
əyrini - əyri
yazan Babam.
Salam.

Ötsə də bir əsr,
keçsə də zaman
dəyişən görkəmdir,
insan – həmin insan.
O kiçik daxmalar,
o kiçik evlər
böyük – böyük binalar,
saraylar olub bu gün.
O palçıqlı küçələr,
o dar dalanlar bir bax,
asfaltlı, geniş olub.
Insanlıqda deməzdim
çox böyük dönüş olub.
Sanki elə mən bu gün

tənqid etdiyin zaman,
mühitdə yaşayıram.

Sən o vaxt daşıdığın
ağrı – acı yükünü
bu gün mən daşıyıram.

Fəhlə də sən gördüyün
elə həmin fəhlədir.
Yenə də sərvəti,
yenə də pulu yoxdur.
Bu müşkülü çözməyə
imkanı, yolu yoxdur.

Fəhlə, sən hələ az yanmısan,
yanmalısan.
Nə qədər haqq danılır,
böylə gündə olmalısan,
qanmalısan.

Axtarmırıq bu gün heç
anya – sonya kimisin.
Heç buna ehtiyac yox,
Çünki anya – sonyadan
bu gün özümüzdə çox.
Bu gün bizim cəmiyyət

zay olub, xarab olub.
Dünən zibil daşıyan
bir baxın, cənab olub.

Qapa – qapa,
çapa – çapa,
sata – sata,
ata – ata
neçəsi sərvət yığıb.
Bilmirəm belələrin
analar niyə doğub?

Baba, əyri gördüyün
bu gün yenə əyridir.
Kasıb yenə qan ağlayır,
əcnəbilər kef – damaqda
təkcə müsəlman ağlayır.

Ümidimiz, gümanımız
xəlq eyləyən Allahadır.
Hər günümüz ötür belə,
ümidimiz o vaxt, bu vaxt
açılacaq sabahadır.

Güzgüyə bax

Çırtlayaram mən səni,
günəbaxanın tumu kimi.
Divara suvaq eylərəm,
Balaxanının qumu kimi.

Güzgüyə bax sən hərdən,
gör orda öz halını.
Rəngin olub sapsarı,
lap naringi, lumu kimi.

Insan kimi ömr elə,
zəhər qatma aşıma.
Səni suda qərq eylərəm,
o biçarə Mumu kimi.

Mənə çata bilməzsən heç,
döşünə döymə sən hədər.
Səni baş – ayaq eylərəm,
tarlaların şumu kimi.

Ağ eyləmə çox belə,
qatıqlama bilə - bilə.
Səni doğraram dovğaya,
keşniş, nanə, şomu kimi.

Belələri

Atasını – anasını
sevməyənlər,
kim deyir ki, sevə bilər,
bu torpağın dağ – daşını?
Kim deyir ki, sevə bilər
qəlbi yoxsa
öz yurdunu – yurddaşını?

Beləsindən nə mərhəmət,
nə bir vəfa,
nə bir səfa,
nə doğru bir söz gözləmə.
Nə diriyə bir hay verən,
nə də ölüb – itənlərə
bir pay verən üz gözləmə.

Belələri bir qara daş,
üzü qara, içi qara.
Belələri ola bilməz
bir kimsəyə dost, nə yoldaş.

Beləsindən uzaq dolan,
Özü kimi, sözü kimi
yalan yoxdur, olmayacaq.

Beləsinin ərliyi də,
nərliyi də hamısı yalan.
Beləsinin ədaləti,
ləyaqəti yoxdu əsla,
ola bilməz.
Beləsindən tarixlərdə
bir nişanə, bircə yazı
qala bilməz.

Belələri doğulmadan
ölənlərdir,
Belələri millətinin
ağrısına – acısına,
yadlara da yaxına da,
qardaşına – bacısına
gülənlərdir.

Xəbərçi

Heç bilmirəm qazancı nə, xeyri nə
Söz aparan, söz gəzdirən alçağın?
Yıxıb yerə döyəsən hey ağzına,
Sürüyəsən içində zığ – palçığın.

Dağ çəkəsən dodağına, dilinə,
Dağ çəkəsən barmağına əlinə.
Şükür Allah axmağına, dəlinə,
Salma bizi kəməndinə sarsağın.

Heyf onun kəsdiyi o çörəyə,
Çox namərddi, bıçaq saplar kürəyə.
Özlüyündə bənzəsə də zirəyə,
Yeriməyir vurmayanda şallağın.

Acgöz

Allahıma bir can borcumdan özgə,
Daha alıb – verəcəyim yox mənim.
Bu dünyanın nazı – nemətlərindən
Gözüm – könlüm tox mənim.

Bəs yığanlar niyə yığır sərvəti?
Bu dünya heç Süleymana qalmayıb.
Nə qədər də yığıb, toplasa hər gün,
Dünya nə vaxt verdiyini almayıb?

Bilə – bilə hər cür çaba əbəsdir,
Yığım deyir, gözü doymur insanın.
Bu dərd təkcə gözlərin dərdi deyil,
Özü doyur, nəfsi qoymur insanın.

Varlı, kasıb nə aparır dünyadan?
Beşcə arşın bezdi ola – olmaya.
Bəs niyə ayılmır insan röyadan?
Kimdənsə xatirə qala – qalmaya.

Lovga

Birindən sovuşub dəli – sərsəmin,
Nəfəsmi alınca biri də çıxır.
Heç tapa bilmirəm işilərin çəmin,
Sərsəmlər dünyamı beləcə yıxır.

Deyirəm, başını qat öz işinə,
Mənimlə qovğadan nə qazanırsan?
Nə qədər insanın qəlbin qırmısan,
Tutduğun əməldən heç utanırsan?

Əkənin əkibdir, doğan nə adla
Əziyyət çəkərək doğubdur səni?
Canında lovğalıq, təkəbbürün çox,
Bu qədər özündən razısan yəni?

Məni də, onu da, lap hər bir kəsi
Aldada bilərsən, soya bilərsən.
Qorxmursan Tanrının qəzəb – kinindən,
Bunca günahları yuya bilərsən?

Ağlını başına yığmağın yaxşı,
Səbrsiz, səbəbsiz görmə işini.

Qarşında gördükdə sakit birini,
Xox gəlib, qıcama əsla dişini.

Qaniçən

Ərəb ölkələrində günahsız insanlara edilən zülmə etiraz

Yenə nələr çevirirsən,
ey bəd işi çin – çin olan.
Insanlara oxşasa da,
ey bədheybət, div – cin olan.

Yaraşmayır insanlığa
bəd əməllər, bədxahlıqlar.
Gəlib – gedib, viran olub
imperiyalar, padşahlıqlar.

O körpənin, o ananın
bir de, nədir, nədir suçu?
Sən bir məmləkət rəhbəri,
yoxsa ki, bir lotu – qoçu?

Ağlın qaçıb, yoxdur şüur,
işləməyir daha başın?
Öc alacaq millət səndən,
“dost” qaçıb, hanı qardaşın?

Millətinə tuşladığın
o silah nə, ey qaniçən?
Bilmirsənmi pis gələcək
bir gün bu işlərin dalı?

Salam köhnə palto

Salam köhnə palto,
Salam köhnə papaq.
Yenə qış gəldi,
axı deyə bilmərəm,
niyə gəldi, nöş gəldi?

Çıxarıb dolabımdan
baxdım köhnə paltoya.
Təmizləyib, ütüləyib
salam dedim,
köhnə paltoya, sərt qışa.

Indiki bu zamanda
varmı məntək geyinən
köhnə – nimdaş paltonu?
Gör neçə illərdi ki,
saxlayıram, geyirəm
utanmadan mən onu.

Qoydum başa tükləri,
rəngi solmuş,
köhnəlmiş,
nimdaş olmuş
Nuhdan qalma papağı.

Palto köhnə olsa da,
papağımın görkəmi
dəyişsə də,
itsə də,
rəngi xeyli solsa da
qoruyacaq soyuqdan,
qoruyacaq ayazdan.
Elə də çox qalmayıb,
yaz gələcək bir azdan.

Bəşərdən deyil

Dünya deyən əzəldən
elə lağ – lağ dünyası.
Ağıllı soragında
tapdım sarsaq dünyası.

Heyflər olsun, heyf
dəlisi, sərsəmi çox.
Başlar niyə dumanlı?
ayığından dəmi çox.

Əhvaldanmı dəmliyi,
ya belə yazmış yazan?
Yox, belə bir kəmliyi
qazanmış yolun azan.

Yol azmaq, yol itirmək
özün itirmək demək.
Səhv yolla yol eyləmək,
gözün itirmək demək.

Bəsirəti kor olan
ən böyük əlil, zəlil.
Kim çıxsa haqq yolundan,
o kəs bəşərdən deyil.

Yersiz gəldi...

14.07.2014 – cü ildə Kəlbəcərdə
əsir düşən Dilqəm Əhmədova

Bu ellərə baş çəkməyə,
güllərini qoxlamağa,
nə var, nə yox bilmək üçün,
övlad kimi yoxlamağa
getmişdi o.
Dünya – aləm karmı – kormu,
hanı mizan tərəzisi?
Əyilibmi?
Yox, əyiblər.
Indi deyil, zaman – zaman
Çox əyiblər.
Kor olubdur
görən gözlər,
lal olubdur
dinən dillər.
Bu lallığın,
bu korluğun ucbatından,
viran qalıb məmləkətlər,
neçə ellər.

O yaddımı bu torpaqda,
yoxsa ki sən?
Bəlkə səni burda əkib
alçaq dədən,
ya ki səni burda doğub
ayağı sürüşkən
o nənən?
Tfu sizin
ac – yalavac sülək ittək
yal axtaran əslinizə.
Tfu sizin bilinməyən
kökünüzə,
nəslinizə.
Hanı mizan tərəzisi?
Əyilibmi?
Yox, əyiblər...

Dost hardadır

Ağızdolu dost deyən,
hanı dostlar, hardadır?
Yoxsa ki heç olmayıb
hər gün "sənə can qurban",
"səndən yoxdur" deyənlər?

Görünməyir nədənsə
ləyaqətdən dəm vuran,
uca səslə şərəfə
tost deyənlər hardadır?

İşinə bax fələyin,
gülməlidən gülməli.
Bəlkə lap hönkür – hönkür
oturub ağlamalı.

Nədir bunlar Allahım?
Bilə - bilə, qana – qana
insan bunca riya edir.
Çirkablara bulaşaraq,
gözübağlı, qarasına
heç bilirmi hara gedir?

Çörək itirməyənlər

Döymə mənim qapımı,
döymə təmənna üçün.
Təmənnasız insandan
ala biməzsən onu.

Mənim qapım dost üçün,
sirdaş üçün açıqdır,
qardaşlıq edə bilən
qardaş üçün açıqdır.

Çörək itirməyənlər,
yolum üstə bilərək
tikan bitirməyənlər,
çağıranda hay verən,
tikəsindən pay verən
insanlardır qardaşım.

Gözüm üstə yeri var,
Şəninə yazmadığım
min kitablıq şeri var
çox yaxşı insanların.

Bu daş

Tərəzinin gözün əyən
bu daş həmin daş, özüdür.
Tərəziyə daşı qoyan
əyri özü, çaş özüdür.

Bu daş həmin daşın özü,
Düşmüş, neçə başı yarmış.
Göyərtmək üçün bu daşı,
Eh, onu kimlər suvarmış?

O vaxt, bu vaxt, zaman – zaman
Bu daş dəyib çox ayağa.
Hərdən bu daş kara gəlib,
Üçdaş, beşdaş oynamağa.

Bu daş daldan atılan daş,
Topuğdu son ünvanı da.
Bəlkə elə bu daş ilə
Daşlayıblar şeytanı da.

Qobustanın daşı bu daş,
Çox qədimdi sinni – yaşı.
Bu daş Qaraca çobanın
Sapandla atdığı daşı.

Şair

Görüb çox haqsızlığı gəlmisən dilə, şair,
Soruşma hardan gəlir bu qurğu, tələ, şair.

Ciddi sözüm çox hələ, yetməli ünvanına,
Bir xeyli də yazmışam gülə – bülbülə, şair.

Ağırdı dünya yükü, tək çəkə bilmərəm mən,
Mənim çiynimçün deyil bu ağır şələ, şair.

Yaman qarışmış aləm, yaxşı – yaman tanınmır,
Güman etmirəm gedə bu dünya belə, şair.

Sənlik deyil əyrini düzlə üz – üzə qoymaq,
Ümman deyir səbr elə, çox qalxma zilə, şair.

Etməyib

Dərd verən dərdi verib, dərmanı ki kəm etməyib,
Kimdi o mənəm deyən, guya ki heç qəm etməyib?

Nə qədər çox olsa dostun ziyanı olmayacaq,
Çox yazıqlar o kəsə dostlarını cəm etməyib.

Vay o kəs halına ki, can verməyir canan üçün,
Qəlbini damla – damla əritməyib, şəm etməyib.

Sonsuz bir məhəbbətlə Leyla sevirdi Məcnunu,
Yoxsa ki, Leyla nahaqdan gözünü nəm etməyib.

Nəfsinə qul olmaq, Ümman insanı xar eləyib,
Ilk dəfə kim baş əyib, gizlimi Adəm etməyib?

Cəhd eləmə

Məni öldürmək üçün cəhd eləmə, ölmərəm heç,
Sənindi bu qəlb evim, özgə ilə bölmərəm heç.

Niyyətim safdı mənim, əyri sözüm yoxdu qəti,
Mən həqiqət aşiqi, əyri yalan bilmərəm heç.

Yazmışam ismini çoxdan qəlbimin guşəsinə,
Yüzlərlə Leyla gələ, yazdığımı silmərəm heç.

Dedilər, Leyla ilə Məcnuna bax, ibrət elə,
Gördüm dillərdə şüardı, bu yola gəlmərəm heç.

Səhər – axşam edərəm Tanrıma, Ümman səcdə,
Etməsə rəhmini yəqin ki, deyib – gülmərəm heç.

Ləb üçün

Getmə zalım yanına, əl açma dərman, həb üçün.
Sözü dildir ötürən izhar etməyə ləb üçün.

Yaradan göndərib ilham pərisilə təbi də,
Özünü etmə fəda, gəzmə hədər sən təb üçün.

Geysə də zəri – ziba o kəs hələ ali deyil,
Ömrünü verir bada, kim gəzirsə son dəb üçün.

Sındırma bir ürəyi, bərpası mümkün deyil heç,
Qəflətən sancmaq işi çətin deyil əqrəb üçün.

Kim ibadət eləyir gərəkdir Ümman özünə,
O fikir yanlış tamam, edir ibadət Rəbb üçün.

Haqq elə Tanrı özü

Haqq şoranlıqda bitib, çətin yetişsin bəhəri,
Bunun üçün dolaşıb, gəzmək hədər həndəvəri.

Qaça bilməz Yaradan nişangahından kimsə,
Oxlayıb çox haqsızı, əta edibdir qəhəri.

Ilanı gərəkdirsə lap yuvasından çıxarıb,
Döndərib bal edibdi hətta zəqqunu – zəhəri.

Əlimdə var qələmim, qəlbimdə ilham pərisi,
Var elə işlər inan nəfindən çoxdur zərəri.

Haqq elə Tanrı özü, biz də ki, heyran adına,
Ümman da sevgi ilə yazmış Ona çox əsəri.

Olsa

Doğru – dürüstdən deyim, əgər məsləhət olsa,
Götürsün hər kəs payın, sözdə kəramət olsa.

Haqdan deyir deyənlər, amma əməl etməyir,
Dinməz əsla beləsi, canda mərifət olsa.

Kişi danışsın gərək ərliyə xas əməldən,
Ər oğlu ər qalacaq, əgər qiyamət olsa.

Bu gün bir söz söyləyib, sabah danmağa dəyməz,
Kişi sözü bir olar, əgər ki, qismət olsa.

Tülkülük eyləyənlər çox əfsus çoxalıbdır,
Boğazdan çıxar dəri, haqqa xəyanət olsa.

Haqq sözü yox dinləyən, hamı öz kefindədir,
Söz deyəcək ağızlar, haqq və ədalət olsa.

Bu Ümmanın fikridir, siz nə deyirsiniz bəs?
Haqq yerini tutacaq, doğru cəmiyyət olsa.

Yazmışam adını

Yazmışam adını canan qəlbimin düz başına,
Demə ki, qəhətdimi danışmağa söz başına.

Heç də zəhmət çəkib, aldatma hədər sən özünü,
Mən məgər hə demişəm, qərar vermə özbaşına.

Sevgi azaddı gülüm, yox qadağa, varsa denən,
Həkk elə birdəfəlik yaz bunları, yaz başına.

Yox demə, sən məni nolar hədər incitmə, yetər,
Bu payız toy eləyək, ya da gələn yazbaşına.

Ümman, bu gözəl hurini Tanrım yaradıbdır, nə ğözəl,
Tez dolandır, ey gözəl üzərrik ya duz başına.

Nə olar

Gündə bir qiyafədə qarşıma çıxma, nə olar?
Işvə - nazınla məni öldürmə, yıxma, nə olar?

Sən elə bilmə mən hər dilbər üçün can verirəm,
Ölçmə öz ölçün ilə dur, elə baxma, nə olar?

Əsmə heç xəzri kimi, sən tozanaq – toz eləmə,
Dəli çaylar kimi coşma, nə də axma, nə olar?

Hər zaman qəbahət axtarma, sözə söz calama,
Yağışdan əvvəlki şimşək kimi çaxma, nə olar?

Nə zaman eyləmisən yaxşılığı, ya köməyi,
Lap tutaq eyləmisən, tez başa qaxma, nə olar?

Ümmanın sözlərini sırğa elə, as qulağa,
Səbəbi yoxsa gözün yaşını sıxma, nə olar?

Danışar

Kim desə yoxdur qəmim, o kəs yalandan danışar.
Yalançı yalan deyər, doğru olandan danışar.

Çətin öz keçmişini lovğa olan yada sala,
Lovğalıqdır peşəsi, xəyal, gümandan danışar.

Ziyalı insan olan elm – ədəbdən söz açar,
Meyə aludə olan tindən – dalandan danışar.

Söz danış aqil ilə, hörmətli – izzətli olar,
Sözü hədyan danışan əqrəb – ilandan danışar.

Ümman, hər kəs özünə bab ilə həmsöhbət olar,
Düz olan düz əməldən, əyri filandan danışar.

Yeri var

Gecə zülmətdi demə, çün gecənin öz yeri var,
Səhər erkən doğacaq al günəşim, döz, yeri var.

Tanrıdandır gecə – gündüz, fərqi yoxdur qanana,
Sən də öz fikrini de, alaq doğru söz, yeri var.

Amma çox müxtəsər eylə deməyə varsa sözün,
Mayası həqiqət olsun, gecə – gündüz yeri var.

Gecələr qaldıraq eşqin adına badəmizi,
Həvəslə eşq adına mən içərəm, süz, yeri var.

Məhəbbət aləminə çoxları yazmış adını,
Ümman da bu cərgədə salsa təzə iz yeri var.

Yolum Haqq yoludur

Yolum mənim Haqq yoludur, azmaram.
Bir kimsəyə əsla quyu qazmaram.

O yerdə ki, haqq var ola, varam mən,
Haqsız işi haqq olana yazmaram.

Ikibaşlı sözlə mənim yox aram,
Heç bir sözü hallandırıb, yozmaram.

Yüz ölçərək, bir biç – deyib dədələr,
Yazdığımı yazmışamsa, pozmaram.

Mən həqiqət aşiqiyəm əzəldən,
Yolum mənim Haqq yoludur, azmaram.

Özünü

Düşmə bu sevdaya sən, yandıracaqsan özünü.
Qəlbini açma mənə, qandıracaqsan özünü.

Mən necə mehman edim, qəlbimə hakimsə biri?
Hisslərimlə oynama, qovduracaqsan özünü.

Qəlbimdə yoxdur yerin, qardı – borandı sən üçün,
Yaxına gəlmə gözəl, donduracaqsan özünü.

Düş yola, yollar açıq, get, geriyə dönmə daha,
Əyilmə, bəsdir – yetər, sındıracaqsan özünü.

Inadkar olma gözəl, çünki hədərdi inadın,
Bu inadla Ümmana andıracaqsan özünü?

Afərin

Dərsini yaxşı bilirsən, sənə əhsən – afərin.
Doludur şeir – qəzəllə sinə, əhsən – afərin.

Tanrımız veribdi söz əhlinə ilhamı, təbi,
Təbinə, ilhamına, od, ünə əhsən – afərin.

Yeri gəldi de sözü, haqq sözün hər gün yeri var,
Ədasız hər sözünə, hər günə əhsən – afərin.

Vəsf elə təbiəti, doğma yurdu, gözəlləri,
Fəxr ilə mən də deyim, şahanə, əhsən – afərin.

Dedilər, tələsmə Ümman, hər sözü təftiş elə,
Təftişə yoxdu ehtiyac, yenə əhsən – afərin.

Kitabın içindəkilər

Ön söz əvəzi.....3
Aysun.....4
Batan günəşə bənzəyirik.....7
Unut 8
Yuxuma gəl..... 9
Gözləmə sən məni..... 10
Bir gözəl..... 11
Bu sevgi payını..... 12
Başımın bəlası.....13
Donmuş baxışlar.....14
Sevsəydim..... 15
Göz yaşı.....16
Sandım ki.....17
Yoxdur sevgi.....18
Daşa dönmüş ürək var.....20
Özümdən küssəm yaxşıdır.....21
Nərgiz gülüm.....22
Darıxmışam.....23
Inanmıram.....24
Gözəl qadın.....25
Sevgi bir ocaqdı.....27
Gözəl dedim.....28
Gəl gedək uzağa.....29

Gül və bülbül.....30
Könlüm.....30
Bu eşq.....31
Mənim sevgim.....32
Niyə gəlmisən.....33
Sevə bilsəydim.....34
Deyirlər səvabdı..... 35
Bu sevgidən olmayıb.....36
Qəlbin sənin olmayacaq.....37
Sevmə məni..... 38
Getdi.....39
Buz əriyər baharda.....40
Sənin yerinə.....41
Yorma gözlərini.....42
Dərdim.....43
Heç oldu.....44
Görüşdük.....45
Səndən öyrəndim.....46
Bilərsən.....46
Buludlar.....47
Yağış.....48
Külək.....49
Xəyal kimi.....50
Bir gün görüşərik.....51
Sevgi payı.....52
Ağlama.....53

Incimə.....54
Gəncliyim.....55
Döymə ürəyimin qapısın.....56
Nə ehtiyac var.....57
Öldürəcək bu qız məni.....58
Göz yaşları.....59
Gülüm, mənə çay gətir..... 60
Mənim deyil bu dünya.....61
Mən qocalıram.....62
Olsun.....63
Bir kimsə yoxsa.....64
Yollar.....64
Arzular.....65
Aparır.....66
Bilmirəm bu necə sevgidir.....66
Ürəyim.....67
Adın nədir.....68
Səbrsiz deyiləm..... 69
Hər yeri ocağım bilmirəm.....69
Get.....70
Kaş mənim yerimə.....71
Dərd eləmə dərdləri.....72
Mən uşaq deyiləm.....73
Cocuq dünyası.....74
Qəlbimiz dərd yuvasıdır.....75
Insan.....75

Doğru axtardım.....76
Arxayın deyiləm.....77
Çax – çax baş ağrıdır.....78
Susmağın zərdən baha.....79
Əyilmə.....80
Günah ancaq bəşərdə.....81
Dünya və bəşər.....82
Bu dünya.....83
Demə.....84
Xəzan yeli.....86
Giley 87
Kimə inanaq.....88
Yazılıb bəxtinə.....89
Əqrəb deyilsən.....90
Haqq üzülməz.....91
Nə yaxşı ki varsan.....92
Zaman səni itirməsin.....93
Təkcə mən dəliyəm.....94
Ummuram.....95
Hər gün səni gözləyirəm.....96
Ruhumu oxşayan səs.....98
Ömür bitər, yollar bitməz.....99
Tanrının əmri var.....100
Bəstəkar.....101
Ölməyə tələsmə.....102
Düzəlməz.....103

Qatma bizə özünü.....104
Sual.....106
Ağıllı ol.....107
Pullanmısan.....109
Alver.....112
Rüşvət həsrəti.....113
Sabiranə.....114
Güzgüyə bax.....117
Belələri.....118
Xəbərçi.....119
Acgöz.....120
Lovğa.....121
Qaniçən.....122
Salam köhnə palto.....123
Bəşərdən deyil.....124
Yersiz gəldi.....125
Dost hardadır.....127
Çörək itirməyənlər.....128
Bu daş.....129
Şair.....130
Etməyib.....131
Cəhd eləmə.....132
Ləb üçün.....133
Haqq elə Tanrı özü.....134
Olsa.....135
Yazmışam adını.....136

Nə olar.....137
Danışar.....138
Yeri var.....139
Yolum haqq yoludur.....140
Özünü.....141
Afərin.....142
Kitabın içindəkilər.....143